**AZƏRBAYCAN RESPUBLIKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ İNKİŞAF SİSTEMİ İLHAM ƏLİYEVİN SİYASİ STRATEGİYASI KONTEKSTİNDƏ

| | |
|---|---|
| İxtisas: | 5908.01 – "Siyasi nəzəriyyə" |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Günel Qurbanəli qızı Məlikli** |

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2022**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir siyasətin fəlsəfəsi və sosiologiyası" şöbəsində yerinə yetirilmişdir**

**Elmi məsləhətçi:** Siyasi elmlər doktoru, professor
**Hadı Musa oğlu Rəcəbli**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

Siyasi elmlər doktoru
**Elşad Mirbəşir oğlu**

Fəlsəfə elmləri doktoru, professor
**İzzət Əşrəf oğlu Rüstəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30 Birdəfəlik Dissertasiya şurası

**Birdəfəlik Dissertasiya şurasınnın sədri:** akademik
______________________ **Urxan Kazım oğlu Ələkbərov**

**Birdəfəlik Dissertasiya şurasının elmi katibi:**
Siyasi elmlər doktoru, professor
______________________ **Ziyafət Ziya qızı Həbibova**

**Elmi seminarın sədri:** Fəlsəfə elmləri doktoru, professor
______________________ **Əlikram Zakir oğlu Abdullayev**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:**

Məlum olduğu kimi hər bir dövlətin keçdiyi inkişaf yolunu, onun daxili və xarici siyasətini, ərazisində yaşayan xalqların milli maraq və mənafelərini, regional və beynəlxalq siyasətini, sosial-iqtisadi, siyasi-ictimai, elmi-mədəni fəaliyyətini müəyyən edən milli inkişaf sistemi və bu sistemin qurulması üçün görüləcək işlərin xarakterini və ardıcıllığını müəyyən edən milli inkişaf strategiyası vardır. Azərbaycan da müstəqilliyini bərpa etdikdən sonra öz milli inkişaf sistemini yaratmağa başladı və bunun üçün ardıcıl fəaliyyət planlarından ibarət milli inkişaf strategiyasının müəyyənləşdirdi. Məhz bu sistemin və strategiyanın yaradılması, həyata keçirilməsi və nəticələrinin tədqiq edilməsi mövzunun araşdırılmasını aktual edən amillərdəndi.

Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır.[1] Bundan əlavə milli inkişaf sisteminin və onun bir hissəsi olan milli təhlükəsizlik siyasətinin, daxili və xarici siyasət strategiyasının formalaşması, xarakterik xüsusiyyətləri, ümümi nəticələri, istiqamətləri və prinsipləri də mövzunu aktual edən elementlərdən biri hesab edilir.

Hər şeydən əvvəl, milli inkişaf strategiyasının ən vacib komponenti kimi siyasi sabitlliyin qorunub saxlanılması olduğu qeyd edilir. Bu bir faktdır ki, ölkədə sabitliyin qorunub saxlanılması nəinki regionumuzun digər ölkələri ilə, hətta aparıcı dünya dövlətləri ilə müqayisə nümunəsində ilk yerlərdədir.

---

[1] Order of the President of the Republic of Azerbaijan on approval of “Azerbaijan 2030: National Priorities for Socio-Economic Development” /URL: https://president.az/en/articles/view/50474

Mövzunu aktual edən digər səbəblərdən biri də ölkəmizin milli inkişafının əsas obyektlərindən olan regional və beynəlxalq təhlükəsizlik kimi proseslərin təmin edilməsi, perspektivləri, bu münasibətlərdə beynəlxalq iştirakçılarla geniş əlaqələrin qurulması və inkişafı kimi vacib məsələlərdir. Bir sözlə 1991-ci ildə müstəqillik yenidən əldə edən ölkəmizin keçdiyi tarixi inkişaf yolunun bütün sahələri üzrə tədqiq edilməsi, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi milli inkişaf strategiyasının araşdırılması elmi-praktik baxımdan zəruridir.

Müasir dünyada baş verən siyasi proseslərin formaca mürəkkəb və məzmunca ziddiyyətli olduğu, dövlətlərin təhlükəsizliyinə yaranan təhdidlərin yeni xarakter aldığı, cəmiyyətin siyasi həyatına transmilli korporasiyaların təsirinin daha da artdığı bir dövrdə həyata keçirilən siyasətin səciyyəvi xüsusiyyətləri çox mühüm nəzəri, eyni zamanda praktik əhəmiyyətə malikdir. XX əsrdə dünyanın iqtisadi həyatının beynəlmiləlləşməsi bəşər cəmiyyətinin inkişaf istiqamətlərinin əsas hərəkətverici lokomotivi kimi çıxış edir. Bu proseslərin dinamik inkişafı, xüsusən də informasiya sahəsində müsbət inqilabların olması, elmi-texniki inkişafın güclənməsi, dünya dövlətlərinin təhlükəsizliyinin təmin edilməsi və inkişafında yeni, qloballaşma proseslərinin genişləndiyi və daha üstün əhəmiyyət kəsb etdiyi bir mərhələyə qədəm qoymuşdur.

Dünyada gedən proseslərin qarşılıqlı asılılığı və bölgədəki ölkələrin formalaşmasına və inkişafına təsir göstərir. Postsovet məkanında müstəqil dövlətlərin siyasi quruluşu ümumi xüsusiyyətlərə malik olsa da, onun yaranması və inkişafı xüsusi tarixi kontekst ilə müəyyən olunur. Tədqiqatçıların əksəriyyətinin fikrincə, yeni yaranmış müstəqil dövlətlərin formalaşma prosesi özünəməxsus bir şəkildə həyata keçirilir. Bura xalqların və millətlərin milli kimliyindən tutmuş iqtisadiyyata qədər bir çox amillər təsir edir.

Siyasi elitanın formalaşması xüsusi şəraitdə, köhnə sovet imperiyasının qalıqları üzərində, iqtisadi xaos və həyat səviyyəsinin aşağı düşməsi, ictimai şüurda boşluq şəraitində həyata keçirilirdi. Bütün bunlar dövlətin formalaşmasında öz təsirlərini göstərir və müəyyən boşluqların yaranmasına səbəb olurdu. Lakin, milli dövlət-

lərin yaranması suveren dövlət əlamətlərinin formalaşması ilə yekunlaşır.

Sovet imperiyasının tərkibindən ayrılıb öz müstəqilliyini elan edən Azərbaycan Respublikası da müstəqilliyin ilk illərində yuxarıda sadalanan çətinliklərlə üz-üzə qalmışdı. Vahid və mərkəzləşdirilmiş idarəetmə sisteminin olmaması, kadr böhranı, erməni işğalı və s. bu kimi problemlər müstəqilliyimizi təhlükə altında qoymuşdu. Bu proseslər nəticəsində ölkədə köklü islahatların həyata keçirilməsi, bu sahədə yeni milli modelin formalaşdırılması zərurəti yaratdı. Aydın məsələdir ki, yeni model bu və ya digər spesifik cəhətlərlə yanaşı dünyanın yüksək nəticələr əldə etmiş qabaqcıl ölkələrinin ən son təcrübəsini də özündə əks etdirməli idi.

Təməli 1993-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyulan təkmilləşdirilmiş siyasi strategiya onun layiqli siyasi davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən bu gün dünyada baş verən siyasi və iqtisadi proseslər nəzərə alınmaqla uğurla həyata keçirilməkdədir.

Təqdim edilən bu dissertasiya işinin başlıca vəzifəsini ulu öndər Heydər Əliyevin siyasi və mənəvi, yetkin və layiqli varisi Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi milli strategiyanın başlıca istiqamətlərinin təhlili təşkil edir. Ölkə başçısı İlham Əliyev Azərbaycan dövlətinin milli inkişaf strategiyasını yeni məzmun və keyfiyyətlə, uğurla reallaşdırır, vətəndaşların sosial təminatını fəal surətdə möhkəmlətmək üçün bütün qüvvələri səfərbər edir. Suverenliyini qazandıqdan sonra ölkəmiz müstəqil bir dövlət kimi artıq öz təhlükəsizliyini təmin etmək, müstəqil xarici və daxili siyasət yeritmək imkanı qazandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatlar, xüsusilə ölkədə görülən genişmiqyaslı infrastruktur layihələri Azərbaycanın qısa bir zaman kəsiyində Cənubi Qafqazın qüdrətli bir dövlətinə çevrilməsi, regional layihələrin aparıcı fiquru kimi beynəlxalq müstəvidə ölkəmizin rolunu daim aktual saxlayır. Qeyd edilməlidir ki, qazanılan bütün bu uğurlarda möhtərəm Prezident İlham Əliyev bir fenomenal siyasətçi kimi xüsusi olaraq vurğulanmalıdı.

Bu gün ölkəmizin inkişafında və dünya səviyyəsində tanınmasına səbəb olan səriştəli siyasi rəhbər, təcrübəli diplomat Prezident İlham Əliyev 1961-ci ildə Bakı şəhərində ümummilli lider Heydər Əliyevin ailəsində dünyaya göz açmış, orta təhsilini doğma Bakıda aldıqdan sonra 1977-ci ildə Moskva şəhərində Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. Prezidentin beynəlxalq münasibətlərin bütün sirlərinə məhz gənc yaşdan yiyələnməsi Onun dahi bir şəxsiyyət olmasına zəmin yaradırdı. Beynəlxalq münasibətlərin və diplomatiyanın ən incə məqamlarına, yüksək tarixi biliklərə yiyələnən Prezident İlham Əliyev 1982-ci ildə həmin universitetin aspirantura şöbəsinə qəbul olmuş və bu sahənin tam mükəmməl öyrənilməsinə nail olmuşdur. 1985-ci ildə dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi dərəcəsi almışdır. Məhz bu bilik və bacarıqları rəhbərlik tərəfindən yüksək qiymətləndirilmiş və gənc siyasətçi 1985-1990-cı illərdə eyni institutda müəllim olaraq fəaliyyət göstərmişdir. 1994-2003-cü illəri əhatə edən bu dövrdə neft və qaz sahəsində olan uğurlar gənc liderin dayanmadan və yorulmadan vətən üçün çalışması və xalqa xidmət etməsi nəticəsində əldə edilmişdir. Müasir Azərbaycanın neft siyasətinin geopolitik istiqamətləri barədə geniş tədqiqat işlərinin müəllifi olan Prezident İlham Əliyev siyasi elmlər doktoru dərəcəsi almışdır.

Prezident İlham Əliyev inkişaf strategiyasında gənclər və idman siyasəti sahəsində çoxsaylı nailiyyətlərin əldə edilməsində xüsusi rol oynamışdır. 1995-ci və 2000-ci illərdə Milli Məclisə keçirilən seçkilər nəticəsində millət vəkili seçilən İlham Əliyev bu sahədə çox uğurlu fəaliyyət göstərmiş, seçicilərin etimadını ən yüksək səviyyədə doğrultmuş, eyni zamanda ölkədə gedən inkişafın, həyata keçirilən islahatların normativ-hüquqi bazası olan qanun layihələrinin hazırlanması və qəbul edilməsində əvəzsiz xidmət göstərmişdir.

Prezident İlham Əliyev təkcə neft sahəsi və daxili siyasətlə deyil, həmçinin 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin sədri olaraq fəaliyyət göstərmiş, Azərbaycan həqiqətlərinin bütün dünyada yayılması üçün yorulmadan çalışmışdır. Məhz gənc yaşlarında yiyələndiyi diplomatiyanın bütün sirlərin-

dən məharətlə istifadə edən siyasi xadim beynəlxalq arenada Azərbaycanın maraq və mənafelərini qorumuşdur. Ulu öndərin ideyalarına və siyasi kursuna sadiq qalan Prezident İlham Əliyev qısa zaman kəsiyində Azərbaycanı bütün sahələrdə zirvələrə daşımışdır. Ümumiyyətlə Onun güclü diplomatik təcrübəsi, pedoqoji fəaliyyəti, idarəetmə və liderlik təcrübəsi Azərbaycanın inkişafında, iqtisadiyyatının güclənməsində, ordu quruculuğunda, neft strategiyasının həyata keçirilməsində böyük rol oynamışdır. Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunması, möhkəmlənməsi və inkişaf etdirilməsi kimi çətin və şərəfli bir işi məhz Ona həvalə etmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına 2003-cü il 1 oktyabr tarixli müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirdi, mühüm işlərin Onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını diqqətə çatdırdı: Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.[2]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərlik etdiyi müddətdə hər bir Azərbaycan vətəndaşının prezidenti olduğunu dəfələrlə demiş və eyni zamanda bunu əməli fəaliyyətilə də ortaya qoymuşdur. Prezidentliyə başladığı ilk gündən cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirərək,

[2] Əliyev, İ. İnkişaf – məqsədimizdir. / İ.Əliyev. Birinci kitab, avqust 2003 - oktyabr 2003 B., Azərnəşr, -2008, s.10.

qarşıya qoyulmuş qlobal və lokal əhəmiyyətli məsələlərin həlli üçün bütün siyasi gücündən istifadə etmişdir.

Azərbaycan Respublikasının milli inkişaf sisteminin formalaşdırılmasında müstəsna xidmətlərə malik olan Prezident İlham Əliyevin qəbul etdiyi milli inkişaf strategiyası nəticəsində ölkəmiz bu gün yüksək inkişaf dövrünü yaşamaqdadır. Xarici və daxili siyasətdə əldə edilən uğurlar bu strategiyanın nə qədər düzgün və dəqiq planlaşdırıldığından xəbər verir. Aparılan daxili siyasət, vətəndaşların yüksək rifaha çatdırılması milli inkişaf strategiyasının əsas məqsədlərindən biridir. Dünya iqtisadiyyatının böhran vəziyyətində belə ölkəmizə təsirlərin minimuma endirilməsi məhz bu strategiyanın effektivliyinin bariz nümunəsidir.

Ölkə başçısı İlham Əliyev Azərbaycanın dinamik inkişafını, tərəqqisini, çiçəklənməsini verdiyi praqmatik qərarlarla, imzaladığı sərəncam və fərmanlarla təmin edən qurucu, intellektual, bacarıqlı dövlət xadimi olduğunu bütün dünyaya nümayiş etdirdi. Bütün sosial-iqtisadi nailiyyətlərlə bərabər Prezident İlham Əliyev ölkədə daxili sabitliyin təmin edilməsində müstəsna rol oynadı. Bunun üçün ilk növbədə qarşılıqlı münasibətləri tənzimləyən vətəndaş həmrəyliyini, dinamik inkişafı təmin etmək üçün cəmiyyətdə sağlam ictimai mühiti, vətəndaşlar arasında dövlətə və dövlətçiliyə etibar, inam, öz ölkəsini sevmək, sərhədlərini göz bəbəyi kimi qorumaq, onunla qürur duymaq və uğrunda döyüşmək duyğu və hissini yaratdı. Bunlar bütünlüklə cənab İlham Əliyevin Azərbaycanı parlaq qələbəyə aparan sistemli strategiyası idi.

Prezident seçildiyi ilk gündən cənab İlham Əliyev praqmatik dövlət xadimi kimi Azərbaycan iqtisadiyyatının bütün sferalar üzrə inkişafını, ölkənin neft gəlirlərindən asılılığını aradan qaldırılmasını və qeyri - neft sektorunun inkişaf etdirilməsi sahəsində qətiyyətli addımların atılmasını prioritet məsələlərdən hesab etmişdir. Belə ki, ölkə Prezidenti tərəfindən qeyri-neft sektorunda iqtisadi dirçəlişə nail olunması istiqamətində sahibkarlıq ənənələrinə yiyələnməsinə geniş meydan verilməsi, onlara səmərəli dövlət qayğısının göstərilməsinə şərait yaradılması iqtisadi inkişafın əsas istiqamətlərindən biri kimi qiymətləndirildi. Habelə ölkədə kənd təsərrüfatı sahəsində dinamik inkişafa nail olunmasına, ənənəvi əkinçilik və heyvandarlığın, o

cümlədən digər məşğulluq vərdişlərinin bərpa olunmasında təxirəsalınmaz işlərin reallaşdırılması üçün əlverişli mühitin formalaşdırılmasına konkret hədəflərə çatmaqla nail olundu. Məhz bu iqtisadi və siyasi inkişafın ən yüksək pilləsi 44 günlük Vətən Müharibəsində şanlı Azərbaycan Ordusunun qələbəsinin təmin olunması ilə nəticələndi. Yüksək inkişafın əldə olunması Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb oldu ki, bu da ölkənin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində vacib addımların atılmasını mümkün etdi. Qələbənin nəticəsi olaraq, bağlanmış 10 noyabr 2020-ci il tarixli müqavilədən irəli gələn məsələlərin həyata keçirilməsi üçün siyasi gücün daha da effektli tədbiqinə imkan yaratdı.

Azərbaycanın milli inkişaf modeli və strategiyası xarici dövlətlərin siyasəti ilə sıx bağlıdır. Aydındır ki, Türkiyə ilə münasibətlər "bir millət iki dövlət" kontekstində, başqa dövlətlər ilə isə Şərq və Qərb arasında qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında formalaşır. Burada qeyd etmək lazımdır ki, milli inkişaf sistemi bütövlükdə Qərb ölkələrinə metodoloji yanaşma ilə əlaqədardır. Lakin bizim metod və metodologiyalar fərqli cəhətlərə malikdir ki, bu da öz növbəsində müəyyən yenilik təşkil edir və bu yenilik Prezident İlham Əliyevin beynəlxalq münasibətlərdəki yeni siyasi xətti ilə sıx bağlıdır. Tədqiqat işinin əsasını Prezident İlham Əliyevin siyasi xəttinin elmiliyi və təcrübəsi təşkil edir. Bu fəaliyyətlərə daxili və xarici siyasətin həyata keçirilməsi, dövlətin milli maraqlarının müəyyənləşdirilməsi və qorunması, beynəlxalq və regional xarici siyasətdə digər ölkələrlə əlaqələrin formalaşdırılması, iqtisadi və sosial islahatlar, milli təhlükəsizlik və s. daxildir. Dissertasiyada Prezident İlham Əliyevin siyasi kursunun elmi-nəzəri təhlili, yeni metod və metodologiyaların təhlili və tətbiqi öz əksini tapmışdır.

Tədqiqat işinin aktuallığını bir neçə konkret müddəalarla səciyyələndirmək olar:

1. Ölkəmizin SSRİ-nin tərkibində olması milli dəyərlərin, siyasi-ideoloji məsələlərin hamısının SSRİ-nin maraqları çərçivəsində həyata keçirilməsinə səbəb olmuşdur. Məhz müstəqillik bərpa edildikdən sonra ölkəmizdə milli ideologiya, milli siyasi-ideoloji mühit yenidən formalaşmağa başladı.

2. 1991-ci ildə müstəqilliyin bərpasından sonra yeni yaranan dövlət-hakimiyyət-xalq münasibətlərinin yeni fazası inkişaf etməyə başladı. SSRİ-nin dağılması, dünyada baş verən qlobal və transmilli dəyişikliklər bütün postsovet dövlətlərində olduğu kimi Azərbaycanın da qarşısında milli inkişaf sisteminin və milli təhlükəsizlik strategiyalarının hazırlanması və həyata keçirilməsi vəzifələrini qoymuşdur.

3. Milli təhlükəsizlik milli inkişaf sisteminin qarantı kimi onun qurulmasında, həyata keçirilməsində önəmli və vacib hesab olunur. Azərbaycan milli təhlükəsizlik strategiyasının çox tərəfli və effektiv olması daxili və xarici təhlükəsizliyin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir və bu fenomenin kompleks şəkildə tədqiq edilməsi mövzunu aktual edən səbəblərdən biridir.

4. Milli inkişaf sisteminin qurulmasında önəmli yerlərdən birini də iqtisadi siyasət və iqtisadi təhlükəsizliyin təmin edilməsi tutur. Müstəqillik bərpa edildikdən sonra Azərbaycanın keçdiyi inkişaf yolu, güclü və dayanıqlı, rəqabətə davamlı iqtisadiyyatın yaradılması milli inkişaf sisteminin qurulmasına əhəmiyyətli dərəcədə təsir etmişdir.

5. Mövzunu aktual edən amil, əldə edilən nailiyyətlər ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin reallaşdırdığı düşünülmüş və uzaqgörən siyasətləri nəticəsində mümkün olmuşdur. Bu siyasi kursun bütün mərhələləri ətraflı şəkildə tədqiq edilməli və öyrənilməlidir.

6. Tədqiqat işinin aktuallığını şərtləndirən vacib amillərdən biri də Prezident İlham Əliyevin milli inkişaf sisteminin qurulmasında həyata keçirdiyi sosial siyasətdir. Reallaşdırılan çox cəhətli sosial siyasət, qəbul edilən qərarlar, qanunlar və normativ hüquqi sənədlər sosial dövlət anlayışının bütün elmi-nəzəri cəhətlərini özündə əks etdirir.

7. Prezident İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti, insan kapitalının inkişafı üçün verdiyi qərarlar ölkənin bu günkü inkişaf səviyyəsini şərtləndirən mühüm amillərdən biridir.

8. Milli inkişaf sisteminin qurulması üçün ilk normativ hüquqi bazanın formalaşdırılması, institutsional əsasların gücləndirilməsi və görüləcək işlərin buna uyğun proqramlaşdırılması və sistemli şəkildə

həyata keçirilməsi əsas şərtdir. Məhz bu şərtlərə əməl edilməsi bu gün ölkədə milli inkişaf sisteminin qurulmasının əsas təminatçılarından hesab edilir.

9. Müasir dövrdə dünyada yaranan regional və beynəlxalq təhlükəsizlik problemləri, siyasi-ictimai, mədəni-mənəvi və sosial-iqtisadi inkişaf meylləri artıq öz xarakterik xüsusiyyətlərinə görə fərqləndiyi üçün Azərbaycanda da bu istiqamətlər öz əksini tapmışdır.

10. Sürətlə qloballaşan dünyamızda mütəmadi olaraq kəmiyyət və keyfiyyətcə yeni problemlər meydana çıxır. Bu problemlər yalnız beynəlxalq münasibətlərə deyil, cəmiyyət daxili proseslərə də güclü təsir göstərir, o cümlədən milli və dini münasibətləri kəskinləşdirir, mürəkkəb problemlər yaradır. Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi kimi konfliktlər, dünya düzənində islamofobiyanın meydana çıxması, başlıcası isə burada siyasi təfəkkürün təsir gücündən "məharətlə" istifadə edilməsi, müasir gerçəkliyimizin digər ağır problemləri, onların həll edilməsi öz adekvat elmi-nəzəri qiymətini almalıdır. Dissertasiya bu boşluğu müəyyən dərəcədə aradan qaldırmaq məqsədi daşıyır.

11. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında əsas prioritet məsələ kimi Qarabağ probleminin həll olunması, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu hərbi-siyasi və diplomatik addımlar hesabına uğurlu nəticənin əldə edilməsi.

12. Qələbədən və torpaqlarımızın azad edilməsindən sonra da uğurlu diplomatik fəaliyyətin davam etdirilməsi, ölkədə sosial durumun sabitləşməsi, milli rifah səviyyəsinin inkişaf etdirilməsi və s. problemlərin mövcudluğu mövzunu aktual edir.

13.Dissertasiyada qoyulan müddəaların ayrı-ayrı aspektlərinə müxtəlif dövrlərdə bir çox alimlərin elmi tədqiqatlarında rast gəlinir. Lakin doktorluq dissertasiyası səviyyəsində ilk dəfə olaraq bu mövzu tədqiqata cəlb olunmuşdur. Mövzunu aktual edən əsas amillərdən biri də budur.

Yuxarıda qeyd edilən və aktuallığı səciyyələndirən amilləri ümumiləşdirib belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının milli inkişaf siyasətində əldə edilən uğurlar Prezident İlham

Əliyevin siyasi strategiyasının əsası olduğunu göstərir. Bu amil 44 gün davam edən Vətən Müharibəsində əldə olunan qələbə ilə bir daha öz təsdiqini tapdı. Azərbaycan sübut etdi ki, müasir hərbi strategiyaları tətbiq etməklə ölkənin ərazi bütövlüyünü bərpa etməyə, müasir ordu qurmağa, düşməni məğlub etməyə qadirdir.[3]

Azərbaycan Respublikasında milli inkişaf modelinin Prezident İlham Əliyevin siyasi strategiyası kontekstində olan mövzunun işlənmə səviyyəsini təhlil etməzdən öncə, ümumi şəkildə milli inkişaf sahəsinin konkret sahələrinin işlənmə səviyyəsinə diqqət yetirmək önəmlidir. Çünki qlobal problemlərin özünün ziddiyyətli dövründə Azərbaycan Respublikasının dünyada və regionda yerinin və rolunun müəyyənləşdirilməsi, milli inkişaf modeli problemini daha yaxşı anlamaq imkanı verən konseptual müddəaları nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın təhlili göstərir ki, milli inkişaf modeli probleminin ayrı-ayrı nəzəri məsələlərinə bir sıra alimlər öz tədqiqat işlərində xüsusi yer vermişlər. Ümumiyyətlə, elmi ədəbiyyatlardan aydın olur ki, müxtəlif dövrlərdə bir sıra alimlər öz araşdırmalarında dövlətlərin inkişaf modellərinin öyrənilməsinə böyük diqqət yetirmişlər. Qərb alimlərindən Overholt V.[4], Peruzzotti E.[5], Michael R.G.[6], ön sözü ilə Eva M. Knodt tərəfindən tərcümə olunan Luhmann Niklasın[7] "Sosial sistemlər" tədqiqat əsəri və s. tədqiqatçıların araşdırmaları xüsusi əhəmiyyət kəsb edir. Digər bir amerikan tədqiqatçı Makkinder H.J.[8] "Demokratik İdeallar və Ger-

---

[3] Məmmədzadə, İ. Liderlik fenomeni müharibədn sonrakı dövrün bəzi gerçəklikləri./ Prezident İlham Əliyevin Azərbaycanın inkişaf strategiyası: fəlsəfi, sosioloji və siyasi təhlil, Bakı: -2021, -s.7-8.

[4] Overholt, W. Asia, America, and the transformation of geopolitics. –Cambridge: Cambridge University Press, –2007.

[5] Peruzzotti, E. Civil Society and the Modern Constitutional Complex: The Argentine Experience // Constellations. An International Journal for Critical and Democratic Theory. –Volume4, Issue1. – April 1997. – p.94-104.

[6] Michael. R.G. Contemporary Environmental and Occupational Health Issues: More Breadth and Depth // Am J Public Health. – 2007, –March; 97(3): –395–397.

[7] Luhmann Niklas Sosial systems translated by John Bednarz, Jr., with Dirk Baecker foreword by Eva M. Knodt Stanford university press Stanford, –California. –1995, –627 p.

[8] Mackinder, H.J. Democratic Ideals and Reality: A Study in the Politics of Reconstruction. Washington, –D.C.: National Defense University Press, –1996.

çəklik: Yenidənqurma siyasətində bir tədqiqat." əsərində müasir dövlətlərdə milli inkişaf strategiyasıyla bağlı araşdırmalar aparmışdır. Qərb alimlərindən Z.Bjezinski[9], G.Barrov[10] və başqaları ayrı-ayrı dövlətlərdə həyata keçirilən milli inkişafla bağlı əhalinin rifah tərzinin yaxşılaşmasını nəzərdə tutan digər tədbirlər, onların əhəmiyyəti müvafiq istiqamət sahəsindəki islahatlara münasibətini bildirmişlər.

Rus alimlərindən də müasir dövrdə milli inkişaf modelləri ilə bağlı elmi-konseptual tədqiqatlar aparan müəlliflərə istinadlar olunub. Akademik K.E.Yusupovun redaktorluğu ilə Moskvada "Milli İqtisadiyyat"[11] kitabı nəşr olunaraq, Rusiyada və post-sovet respublikalarında formalaşmaqda olan milli inkişaf modelləri ilə bağlı əhəmiyyətli təhlillər verilib. Həmçinin, V.S. Malaxovun[12] "Milli dövlət, milli mədəniyyət və mədəni suverenlik" adlı tədqiqat əsərini xüsusi qeyd etmək olar. Bu qəbildən olan tədqiqatlardan A.A.Kakoşinin[13] "Müasir dünya-siyasi sistemində həqiqi suverenlik", İ.A.Qriqoryevanın[14] "90-cı illərdə Rusiyada sosial siyasət və sosial islahatlar", eləcə də Y.S. Kadomtsevanın[15] "Sosial siyasət və əhali" adlı araşdırmalarını da bu qəbildən uğurlu hesab etmək mümkündür.

Türk tədqiqatçıları da əhalinin sosial rifahının yaxşılaşdırılması üçün sosial siyasətin həyata keçirilməsinin davamlı olması, sosial siyasətin həyata keçirilməsində ədalətə üstünlük verilməsinin zəruriliyini önə çəkmişlər. Bu tədqiqatlardan

---

[9] Bjezinski, Z. The Choice: Global Domination or Global Leadership, – New York: Basic Books, –2004.

[10] Barrow, Georgia M. Aging, the Individual, and Societ….sixth edition., -6 th ed. copyright 1996 byWest Publishing Company, Printed in the United States of America. – p. 422.

[11] Национальная экономика / Под общей ред. акад. К.И.Юсупова. Изд. второе. – Москва: КНОРУС, – 2012. – 284 с.

[12] Малахов, В.С. Национальное государство, национальная культура и культурный суверенитет. // Вопросы философии, – 2011, №9, –с. 87-94.

[13] Кокошин, А.А. Реальный суверенитет в современной мирополитической системе./ А.А.Кокошин. Москва: Европа, – 2006.

[14] Григорьева, И.А. Социальная политика и социальное реформирования в России в 90-х годах. / И.А.Григорьева. –СПБ.:1998 с.20.

[15] Кадомцева, Ю.С. Социальная политика и население //Экономист. –2006, № 7. –с. 48-58.

Ö.Z.Altanın[16] "Sosial politika", E.Bedirin[17] "Sosial siyasət", H.Y.Ersözün[18] "Sosial politikada yerelleşme", Ş.Koçyıldırımın[19] "Qloballaşma dövründə rifah dövləti" əsərlərində problemin müxtəlif aspektlərinə toxunulmuş, həmçinin elmi-nəzəri paradiqmalar əsasında təhlillər aparılmışdır.

Azərbaycanın görkəmli dövlət və elm xadimləri də bu məsələlərlə bağlı elmi araşdırmalar aparmış və dəyərli monoqrafiya-lar çap etdirmişlər. Bu mövzuda araşdırma edən alimlər akademik U.Ələkbərovun Azərbaycan qəzetində "Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır"[20], "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları"[21], H.Babaoğlunun "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri"[22], E.Əhmədovun "Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərnin icmalı (2008-2010)"[23], E.Nəsirovun "Dövlət İdarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmalı (2011–2013, mart)"[24], H.Rəcəblinin "Sürətli inkişaf, müstəqil

---

16 Altan, Ö.Z. Sosyal Politika / Ö.Z.Altan. Anadolu Universitesi, –2006.–324 s.
17 Bedirç E. Sosyal politika // A.Yusuf, T.Aysen, M.Ö.Mehmet [və b.]Anadolu Universitesi yayini. no: 2628, – 2011. – 233 s.
18 Ersöz, H. Y. Sosyal politikada yerelleşme / H.Y. Ersöz. –İstanbul, –2011, –226 s.
19 Koçyıldırım, Ş. Bölgesel kalkınmma sürecinde sosyal hizmet // Sosyal hizmet simpozyomu. –Ankara, –1999, –s.153-160.
20 Ələkbərov, U. Azərbaycan qəzetində "Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır" _/URL:https://www.azerbaijan-news.az/uploads/documents/pdf/1-8pdf-1614804507.pdf
21 Ələkbərov, U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları / U.Ələkbərov.. – Bakı, -2013, 176 s.
22 Babaoğlu, H. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri/ H.Babaoğlu. – Bakı, "MSA" nəşriyyatı, - 2013, - 456 s.
23 Əhmədov, E. Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərnin icmalı (2008-2010). III kitab. Bakı, "Letterpress"nəsriyyat evi, -2013, -752 s.
24 Nəsirov E. Dövlət İdarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmalı (2011–2013, mart)", (IV kitab, həmmüəllif) // Bakı, "Azərbaycan" nəşriyyatı – 2013, - 976 s.

siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi” [25] və s. elmi araşdırmalarında milli inkişaf sisteminin yaradılması üçün müəyyənləşdirilən milli inkişaf strategiyasının bütün aspektləri ətraflı olaraq araşdırılmış, müxtəlif yeniliklər analiz edilmiş və milli inkişaf strategiyası ilə bağlı həyata keçirilməli olan bir sıra məsələlərə diqqət çəkilmişdir.

Araşdırmaçılar qeyd edir ki, ölkə başçısı İlham Əliyevin idarəetmədə qazandığı uğurları həm genetik kodlarla onun qanına hopan amillərlə, həm də kifayət qədər ulu öndər Heydər Əliyevdən qazandığı ciddi təcrübə əldə etməsiylə mümkün olmuşdur. Dahi lider Heydər Əliyev SSRİ-nin süqutundan sonra Azərbaycanı bütün bəlalardan xilas edərək ölkəni ağır böhrandan çıxara bildi və sabit, dayanıqlı inkişafa nail oldu. Həmin uğurlu strategiyanı Prezident İlham Əliyev yeni məzmun və keyfiyyətlə davam etdirməkdədir. Prezident İlham Əliyev nadir və fenomenal şəxsiyyətdir. Akademik İ.Həbibbəylinin “İlham Əliyev zirvələri”[26] adlı çap olunan məqaləsini və Azərbaycanın digər elm xadimlərinin müxtəlif illərdə dərc olunan müəllif yazılarını qeyd etmək mümkündür.

Azərbaycanın hərbi-siyasi və diplomatik sahədə uğurları birbaşa Prezident İlham Əliyevin fenomenal istedad sahibi olmasının göstəricisidir. 44 günlük Vətən Müharibəsində qələbənin əldə olunmasında müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırıqları və əmrləri, həmçinin müharibə dövründə və ondan sonrakı dövrdə diplomatik əlaqələrin düzgün və korrekt qurulması hesabına region və dünya miqyasındakı aparıcı dövlətlərlə aparılan danışıqlarda milli maraqlarımızın tam təmin olunmasına gətirib çıxarması və ən nəhayət Türkiyə ilə Azərbaycan arasında bütün sahələri ehtiva edən Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın və onun Prezidenti İlham Əliyevin uğurlu siyasi strategiyasının zirvəsi hesab etmək mümkündür.

**Tədqiqatın obyekti və predmeti.**

Tədqiqatın obyektini dövlətlərin reallaşdırdığı milli inkişaf siyasəti və bu siyasət çərçivəsində həyata keçirilən məqsədyönlü

---

[25] Rəcəbli, H. Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi // Azərbaycan. –2018, 31 oktyabr.

[26] Həbibbəyli, İ. İlham Əliyev zirvələri//Azərbaycan. – 2018, 23 dekabr.

tədbirlər əhatə edir. Həmçinin, Azərbaycan Respublikasında milli inkişaf modelinin formalaşması problemi və onun bütün sferalarda mövcud fəaliyyət mexanizmlərinin siyasi təhlili, eləcə də öz struktur və funksional təzahüründə Azərbaycanın hərbi, siyasi və iqtisadi modeli çıxış edir.

Tədqiqatın predmeti müasir Azərbaycan Respublikasında bu modelin Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi strategiya kontekstində təzahürüdür. Eləcə də ölkəmizdə milli inkişaf modelinin formalaşma xüsusiyyətləri, qanunauyğunluqları və prosesin inkişafı gedişində yaranan münasibətlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.**

1. Prezident İlham Əliyevin hazırladığı və olduqca mürəkkəb beynəlxalq şəraitdə uğurla həyata keçirdiyi siyasi strategiya kontekstində Azərbaycan Respublikasının milli inkişaf sistemini araşdırmaq;

2. Azərbaycanın milli inkişaf sisteminin qurulmasının və milli inkişaf strategiyasının həyata keçirilməsinin mərhələləri və xarakteristikasının nəzəri-praktik və hüquqi əsaslarının öyrənilməsi, bu strategiyanın həyata keçirilməsinin əsas ideyası olan Azərbaycançılıq ideyasının təhlil edilməsi;

3. Prezident İlham Əliyevin strategiyası ilə vəhdətin tam bir sistem kimi təhlili;

4. Ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində xalqın milli maraqlarının və mənafelərinin qorunması mexanizmlərinin, innovativ texnologiyaların elmi-nəzəri aspektdən təhlil edilməsi;

5. Milli inkişaf sisteminin əsas sütunlarından biri olan iqtisadi inkişafın bütün sahələri üzrə öyrənilməsi, iqtisadi inkişafa nail olmanın fəaliyyət mexanizmləri və bu mexanizmlərin normativ-hüquqi bazasının araşdırılması;

6. Sistemli yanaşmanın siyasi elmdə metod və metodologiya kimi tətbiqi. Bu yanaşmanın fənlərarası metodologiyanın Azərbaycanın inkişaf sistemində işlənməsi işin əsas nəzəri yeniliyini təşkil edir;

7. Milli inkişaf sistemində bu metod və metodologiyanın tətbiqi bir sıra elmi problemlərin analizini tələb edir. Məsələn, sosial siyasətin müasir dövrdə inkişafda yeri və rolunun araşdırılması və

bizim ölkəmizdə Prezident İlham Əliyevin siyasi xəttində onun tətbiqi və tədqiqi;

8. Milli inkişaf sistemində sistemli metodun tətqiqi və tətbiqi dissertasiyada faktiki olaraq bizim strategiyada əsas istiqamətləri həm müəyyən edir, həm də onların inkişafa təsirini göstərir.

Ümumiyyətlə mövzunun məqsəd və vəzifələri tədqiq olunan mövzunun aktuallığından və xarakterindən törəyir. Yəni qloballaşan dünyada Azərbaycan Respublikasında milli inkişaf sistemini Prezident İlham Əliyevin siyasi strategiyası kontekstində tədqiq və müəyyən etməkdir. Mövzunun müxtəlif sahələrinin işlənməsi nəzərə alınaraq tədqiqatın başlıca məqsədi müəyyənləşdirilmişdir. Aparılan tədqiqatın məqsədi mövzunun öyrənilməsi zamanı sistemli və kompleks yanaşmadan istifadə etməklə milli inkişaf strategiyasının təkmilləşdirilməsi və gücləndirilməsi yollarının təhlilini həyata keçirməkdir.

Milli inkişaf strategiyasının öyrənilməsi zamanı qarşıya qoyulan məqsədə çatmaq üçün bir sıra işlərin həyata keçirilməsi vacibdir:

- Azərbaycan Respublikasında həyata keçirilən uğurlu milli inkişaf siyasətinin müəyyən edilməsində Prezident İlham Əliyevin rolunun, siyasi strategiyasının tədqiq edilməsi; bura Prezident İlham Əliyev siyasi kursunun bütün istiqamətləri: dövlətçilik ənənələrinin, milli maraqların qorunması yolları, təhlükəsizlik strategiyasının həyata keçirilməsinin mexanizmləri, xarici siyasət, diplomatiya və beynəlxalq əlaqələr sahəsində həyata keçirilən fəaliyyət və s. daxildir.
- Milli inkişaf sistemində İlham Əliyevin sosial siyasət platformasının tədqiq olunması; bura daxildir sosial sabitliyin təmin olunması, milli rifahın yüksəldilməsi yollarının araşdırılması və s.;
- Əldə olunan nəticələri ümumiləşdirmək, onların əsasında bu sahənin daha da yaxşı inkişafı üçün nəzəri və praktiki tövsiyələri irəli sürmək.

Fikrimizcə, Azərbaycan Respublikasında milli inkişaf sisteminin formalaşmasının Prezident İlham Əliyevin siyasi strategiyası kontekstində tədqiq edilməsi probleminin və Azərbaycanda bu istiqamətdə həyata keçirilən islahatların mahiyyətini başa düşmək

üçün aşağıdakı amillərin nəzərə alınması və onlardan doğan suallara cavab tapılması zəruridir:

a) Daxili sabitlik və milli inkişaf sisteminin təkmilləşdirilməsi milli təhlükəsizliyin qarantı kimi öyrənilməsi;

b) İnnovasiya əsaslı iqtisadi strukturun təkmilləşməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi, nəqliyyat və tranzit infrastrukturunun genişləndirilməsi məsələləri;

c) Ölkədə əhalinin sağlamlığı və səhiyyə sisteminin təkmilləşdirilməsi;

ç) Qaçqın və məcburi köçkünlərin və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması;

d) Modern cəmiyyət quruculuğunda əldə olunan nailiyyətlər və problemlər;

e) Beynəlxalq və regional təhlükəsizlik siyasətində diplomatik siyasət, milli maraqların qorunması məsələləri;

ə) Beynəlxalq iqtisadi layihələrin hazırlanması və həyata keçirilməsi vəzifələri;

f) Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi milli inkişaf sistemində birinci dərəcəli problem kimi və 44 günlük Vətən müharibəsi;

Dissertasiyanın məqsəd və vəzifələrini müəyyən edərkən yuxarıda qoyulmuş bu problemlərin təhlilinə xüsusi diqqət yetirilmiş, ondan irəli gələn suallara da mövzunun imkanları daxilində cavab verməyə səy göstərilmişdir.

**Tədqiqat metodları.** Elmi işdə istifadə edilən əsas metodları politoloji, sosioloji, fəlsəfi analizin ümum elmi prinsipləri, Azərbaycan və xarici ölkə alimlərinin bu sahədəki nəzəri nəticələri təşkil edir. Ümummilli lider Heydər Əliyevin bu sahədəki məqsədyönlü ideyaları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli inkişaf siyasətinə dair irəli sürdüyü konsepsiyalar, həyata keçirdiyi tədbirlər Azərbaycanın demokratik ənənə göstəriciləri və perspektiv inkişaf istiqamətlərinin təmin olunması, vətəndaş cəmiyyəti institutlarının milli inkişaf modelinin formalaşması prosesində yeri və rolu, Azərbaycan dövlətinin gənclər siyasəti və s. sahələrdəki konstruktiv fəaliyyəti aparılan tədqiqatın nəzəri-metodoloji əsaslarını təşkil edir. Bu sahədəki kitab, məqalə və çıxışlar mövcud olan nəzəri ədəbiyyat mövzunun

araşdırılması üçün metodoloji baza rolunu oynamışdır. Ümumiyyətlə, tədqiqatın aparılmasında sistemli yanaşma prinsipi tətbiq olunaraq siyasi təhlilin analiz və sintez, statistik təhlil metodlarından istifadə edilmişdir. Mövzunun işlənməsində istifadə olunan metodoloji yanaşma problemin daha dərindən və geniş aparılmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Müstəqillik bərpa edildikdən sonra Azərbaycanda milli ideologiya, milli siyasi-ideoloji mühitin yaranması, milli inkişaf sisteminin və bu sistemin qurulması üçün Prezident İlham Əliyev tərəfindən milli strategiyanın həyata keçirilməsinin əsas məqamları öz əksini tapır.
2. Azərbaycan milli təhlükəsizlik sisteminin effektiv olması, daxili və xarici təhlükəsizliyin təmin edilməsində xüsusi əhəmiyyət kəsb etməsi milli strategiyanın həyata keçirilməsinin qarantı kimi nəzərdən keçirilir.
3. Müstəqillik bərpa edildikdən sonra Azərbaycanın güclü və dayanıqlı, rəqabətə davamlı iqtisadiyyatın yaradılmasının milli inkişaf sisteminin qurulmasına təsiri formaları, müstəqillik qazanmış yeni Azərbaycandan inkişaf etmiş modern Azərbaycana aparan şərəfli yolu araşdırılır.
4. Prezident İlham Əliyevin reallaşdırdığı düşünülmüş və uzaqgörən siyasi kursunun bütün mərhələlərinin ətraflı şəkildə tədqiq edilməsi və öyrənilməsinə cəhd edilmişdir.
5. Prezident İlham Əliyevin milli inkişaf sisteminin qurulmasında həyata keçirdiyi çox cəhətli sosial siyasətin bütün elmi-nəzəri cəhətləri tədqiqat işində öz əksini tapır.
6. Prezident İlham Əliyevin apardığı gənclər siyasəti, insan kapitalının inkişafı üçün verdiyi qərarlar, güclü sosial müdafiə sisteminin qurulması istiqamətində atdığı addımlar ölkənin bu günkü inkişaf səviyyəsini şərtləndirən mühüm amillərdən biri kimi nəzərdən keçirilir.

**Tədqiqatın elmi yeniliyi.** Ümumiyyətlə, tədqiqatın elmi yeniliyini müəyyənləşdirməkdən ötrü ilk öncə problemin qoyuluşuna diqqət yetirmək zəruridir. Bu tədqiqat işinin elmi yeniliyi isə ondan ibarətdir ki, Azərbaycanın siyasi elmi üçün xüsusi aktuallıq kəsb edən milli

inkişaf modeli ilk dəfə olaraq Prezident İlham Əliyevin siyasi strategiyası kontekstində bu dissertasiyada ətraflı şəkildə araşdırılmışdır. Konkret olaraq mövzunun elmi yeniliyini bir neçə müddəada qeyd etmək mümkündür:

- Ölkənin inkişafında qarşıya çıxan problemlərə və həyata keçirilən tədbirlərə tarixi prizmadan yanaşmaq, dünyanın mövcud reallıqlarını müasir dövlətçilik fəlsəfəsi işığında dəyərləndirmək və bütün proseslərin gedişatına müvafiq olaraq əsaslı qərarlar qəbul edilməsi Prezident İlham Əliyevin dövlət siyasətinin və idarəetmə sisteminin əsası kimi araşdırılır;
- dissertasiyada ölkəmizdə həyata keçirilən milli inkişaf siyasətinin müsbət nəticələri ətraflı şəkildə araşdırılır;
- ölkəmizdə sosial sabitliyin qorunması üçün nəzərdə tutulan milli inkişaf strategiyası və bu strategiyanın həyata keçirilməsində Prezident İlham Əliyevin rolu geniş tədqiq edilir;
- sistemli yanaşma prinsipinə müvafiq olaraq ölkənin milli inkişaf strategiyasının prioritet istiqamətləri ətraflı şəkildə öyrənilir;
- Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi nəticəsində ölkə iqtisadiyyatına dəymiş ziyanların aradan qaldırılması, aparılan məqsədyönlü sosial-iqtisadi islahatlar və 44 günlük Vətən Müharibəsinə gətirib çıxaran amillər analiz edilir;
- ölkənin milli inkişaf modeli sivil dünyada qəbul olunan metod və üsullarla Prezident İlham Əliyevin siyasi strategiyası kontekstində tədqiq edilir;
- Azərbaycanda milli inkişaf modelinin formalaşması probleminin spesifikası, bu istiqamətdə həyata keçirilən islahatların nəticələri müəyyənləşdirilir;
- Azərbaycan Respublikasında milli inkişaf modelinin Prezident İlham Əliyevin siyasi strategiyası kontekstində araşdırılmasının inkişaf perspektivləri tədqiq edilir;
- təhsil sisteminin əsas elita rekrutlaşdırma kanallarından biri kimi yaradılmasının vacibliyi prioritet istiqamət kimi nəzərdən keçirilir;
- Azərbaycanda siyasi islahatın əsas şərtlərindən biri olan modernləşmiş elitanın formalaşdırılmasının zəruriliyi müəyyən edilir.

Həmçinin, elmin qəbul olunmuş ümumi və xüsusi (elmi, ümumi siyasi, tarixi, sistemli yanaşma, empirik yanaşma və s.) metodları təşkil

edir. Proseslərə obyektiv yanaşma metodu, deduksiya-ümumidən xüsusiyə məntiqi keçid prinsipi, analiz, sintez və başqa metodlardan istifadə edilmişdir. Ümumilikdə tədqiqatın nəzəri və metodoloji bazasını milli inkişaf modeli və bu model barədə xarici və yerli tədqiqatçıların konsepsiyaları təşkil edir.

Dissertasiya işinin **nəzəri-praktik əhəmiyyəti** ondan ibarətdir ki, qoyulan problem sistemli yanaşma əsasında kompleks şəkildə araşdırılmışdır. Dissertasiyadan, onun əsas elmi və nəzəri müddəalarından bu problemlə əlaqədar aparılan araşdırmalarda, elmi konfransların keçirilməsində, ali məktəblərdə bu sahənin tədrisində və s. istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları müəllifin Azərbaycanda və xaricdə nəşr etdirdiyi elmi məqalələrdə öz əksini tapmışdır. Müxtəlif elmi jurnallarda çap edilmiş məqalə və tezislər tədqiqatın ümumi məzmununu əhatə edir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı** - Azərbaycan Milli EImlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, dörd fəsil, on dörd yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi - 490363 işarə boşluqlarsız, 555874 işarə boşluqlarla. Giriş - 32853 (37218). I Fəsil - 152639 (173324). II Fəsil – 73090 (82745), III Fəsil - 133921 (151511). IV Fəsil - 85762 (97380). Nəticə - 12098 (13696).

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, elmi baxımdan işlənmə dərəcəsi nəzərdən keçirilir, tədqiqatın məqsəd və vəzifələri, işin elmi yeniliyi açıqlanır, müdafiəyə çıxarılan əsas müddəalar qeyd edilir, tədqiqatın nəzəri-metodoloji əsasları təsvir edilir, işin nəzəri və praktiki əhəmiyyəti işıqlandırılır, onun aprobasiyası göstərilir, işin strukturu müxtəsər şəkildə qiymətləndirilir.

Dissertasiyanın **“Prezident İlham Əliyevin siyasi kursunda dövlətçilik modelinin özəllikləri”** adlanan I fəsil üç yarımfəsildən ibarətdir. Bu fəsildə millət, dövlət və hakimiyyət münasibətləri təhlil olunur, həmçinin, ölkədə həyata keçirilən iqtisadi siyasətdə innovativ amillərin rolu barədə araşdırma aparılır.

Birinci fəslin **“Dövlət, millət və hakimiyyət paradiqması İlham Əliyevin idarəetmə siyasətinin əsası kimi”** adlanan I yarımfəslində problemlə əlaqəli nəzəri müddəalar nəzərdən keçirilir və bu siyasi kateqoriyaları milli inkişaf modeli üçün aktual edən amillər təhlil olunur.

Bu yarımfəsildə ilk növbədə dövlət və dövlətçilik ənənələrinin, tarixən meydana gəlmiş müxtəlif idarəetmə formalarının, təhlükəsizlik məsələləri ilə bağlı formalaşmış dünya təcrübəsinin nəzərdən keçirilməsinə ehtiyac vardır. Mövzunun aydın izahı üçün dövlət nədir, dövlətçilik ənənələri və idarəetmə dedikdə nələr başa düşülür və s. bu kimi əhəmiyyətli sualların cavablandırılmasına ehtiyac vardır. Dövlət və dövlətçiliyi şərtləndirən bir sıra amillər vardır ki, bura millətlərin yaranması, dövlətlərin meydana gəlməsi və inkişafı məsələləri aiddir. Hər bir xalq planetimizin siyasi mənzərəsində özünəməxsus yer tutur. Bu mövqeyi, ilk növbədə, xalqın tarix boyu məskun olduğu coğrafi ərazi, keçdiyi inkişaf yolu və s. müəyyənləşdirir. Müasir dünyamızın siyasi məkanında milli dövlətlərin durumu uzun sürən tarixi inkişaf nəticəsində müəyyən edilmişdir.

Bu yarımfəsildə siyasətin yaranması və tarixi inkişafı, dövlət anlayışı və təşəkkülü, dövlətçiliyin mahiyyəti araşdırılmış, hakimiyyətlə cəmiyyətin müvazinəti sayəsində dövlətin stabilliyi, milli inkişaf siyasətinin uğurlu nəticələri, Azərbaycanda dövlətçiliyin inkişafının yeni mərhələsini sabitlikdən modernləşməyə keçid, ölkə prezidenti İlham Əliyev tərəfindən aparılan siyasət bu sahələrdə ölkəmizdə həyata keçirilən işlər barədə geniş məlumat verilmişdir.

Yarımfəsildə qeyd olunur ki, reallıqlara söykənən daxili və xarici siyasət strategiyası Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən fundamental milli inkişafa xüsusi töhvə verdi. Bütün sahələr üzrə ən yeni inkişaf modellərinin ölkəmizdə reallaşdırılması istiqamətində atdığı addımlar dövrümüzün tələb və

qanunauyğunluqlarına uyğun həyata keçirilir. Ölkədə demokratik islahatların aparılması, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu istiqamətində qanunvericilik və praktik iqlim mühitinin formalaşması, ictimai – siyasi stabilliyə zəmanət verən iqtisadi-siyasi layihələrin reallaşdırılması, beynəlxalq aləmdə ölkənin nüfuzunun inkişaf səviyyəsinə görə tanınan dövlətlər sırasında irəliləməsi və s. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatların bariz bəhrələridir. Bu bir faktdır ki, bütün bunların əsasında İlham Əliyev şəxsiyyəti, onun fenomenal liderlik keyfiyyətləri dayanır.

Birinci fəslin **“Daxili sabitlik və milli inkişaf sisteminin təkmilləşdirilməsi təhlükəsizliyin qarantı kimi”** adlanan II yarımfəslində ölkədə milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi, dövlətin daxili siyasi sabitliyinin ən əsas subyektləri, vətəndaşların yaşayış səviyyəsinin xüsusiyyəti, cəmiyyətin siyasi sabitliyinin dinamik tipinin yaranması, inkişafı və inkişaf mexanizmi, dövlətlərin daxili sabitliyini təhdid edən amillərin aradan qaldırılması yolları ətraflı araşdırılır. Daxili sabitlik problemi bütün dünya dövlətlərinin prioritet məsələsi olduğu kimi Azərbaycan Respublikasında da bu məsələyə xüsusi önəm verilir.

Müasir dünyamızda özünəməxsus milli inkişaf sisteminə malik olmayan güclü dövlət təsəvvür etmək mümkün deyildir. Hər bir ölkənin daxili və xarici durumu, milli maraqlarının qorunması, beynəlxalq münasibətlərinin xarakteri, yaxın qonşularla əlaqələri, yerinə yetirdiyi vəzifələr, resurslarından istifadə imkanları, əldə etdiyi nailiyyətləri daha da inkişaf etdirə bilməsi məhz milli inkişaf sistemindən asılı olur.

Cəmiyyətin davamlı tərəqqisi, ictimai-siyasi, milli-etnik, sosial-dini sabitliyin bərqərar olması, hakimiyyət-xalq münasibətlərinin normal məcrada inkişafı, milli maraqlar ətrafında səfərbərlik və s. kimi mühüm amillər məhz bu sistem əsasında müəyyənləşir.

Azərbaycanın milli inkişaf sisteminin təməl prinsiplərini xalqımızın ümummilli lideri Heydər Əliyev formalaşdırmış və Ulu Öndərin mənəvi irsinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev belə bir möhkəm təməl üzərində ölkəmizin mükəmməl milli inkişaf sistemini formalaşdıraraq, bu işlər

sistem əsasında Azərbaycanı milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxarmışdır.

Azərbaycanda sabitliyin qorunub saxlanması nəinki regionun digər ölkələri ilə, hətta aparıcı dünya dövlətləri ilə müqayisədə ilk yerlərdədir. Bunun sayəsində ölkəyə investisiya qoyuluşu yüksək səviyyədə təmin olunub ki, bu da uzunmüddətli inkişafın təmin edilməsinin qarantıdır.

Məhz iqtisadi təhlükəsizliyin təmin edilməsi nəticəsində ölkəmizdə yetkin iqtisadi model yaradılmış, innovasiya əsaslı iqtisadi struktur formalaşdırılmışdır. İqtisadiyyatda çox sahəli inkişafın həyata keçirilməsi üçün qeyri-neft sektorunun formalaşmasına verilən xüsusi diqqət, sahibkarlığa yaradılan şərait məhz iqtisadi təhlükəsizliyin təmin edilərək ümumilikdə milli təhlükəsizlik sistemini formalaşmasına xidmət edir. Milli təhlükəsizliyin təmin edilməsi fonunda yaranan daxili sabitlik milli inkişaf sisteminin daha da formalaşmasına və inkişaf etdirilməsinə xidmət edən addımlardan hesab olunur.

Birinci fəslin III yarımfəsli **"İnnovasiya əsaslı iqtisadi strukturun, qeyri-neft sektorunun inkişaf etdirilməsi, nəqliyyat və tranzit infrastrukturunun genişləndirilməsi strategiyası"** adlanır. Bu yarımfəsildə iqtisadi siyasətin müxtəlif növləri, sosial müdafiə strategiyasının əsas istiqamətləri, alternativ enerji mənbələrindən istifadənin səmərəliliyi, bu sahədə Azərbaycanda görülən işlər, nəqliyyat infrastrukturunun nizamlı fəaliyyəti, enerji nəqliyyatı infrastrukturunun formalaşdırılması, neft və qazın dünya bazarlarına nəqli, qeyri-neft sektorunun inkişafı, sosial-iqtisadi islahatlar ölkədə qısa müddət ərzində makroiqtisadi sabitliyin təmin edilməsi dair məlumatlar izah olunmuşdur.

Bu gün Azərbaycanın milli iqtisadiyyatı qlobal iqtisadiyyatın üzvi tərkib hissəsidir. Bunun nəticəsində Azərbaycan iqtisadiyyatı xarici mühit amillərindən təsirlənə bilir. Ona görə də cənab İlham Əliyevin rəhbərliyi ilə uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatının daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində strateji qərarlar verilir. O cümlədən ölkədə iqtisadi dayanıqlılığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılır. Yalnız şaxələndirilmiş

iqtisadiyyatın dayanıqlı ola biləcəyi reallığı nəzərə alınaraq iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdan ötrü məqsədyönlü işlər görülür.

Prezident İlham Əliyevin siyasi kursunda, daxili sabitlik faktoru və milli inkişafın fundamental əsasları, milli inkişaf və milli təhlükəsizlik strategiyası, ərzaq təhlükəsizliyi problemi, nəqliyyat və tranzit infrastrukturunun genişləndirilməsi, ölkənin sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi, vətəndaşlar naminə verilən önəmli sərəncamlar, həyata keçirilən tədbirlər, ölkənin dinamik inkişafı, vətəndaş həmrəyliyi məsələləri diqqətli araşdırılmışdır.

Dissertasiyanın **"İlham Əliyev cənablarının milli inkişaf modelində sosial-siyasi məsələlər"** adlanan II fəsli 4 yarımfəsildən ibarətdir. Bu fəsildə isə innovasiya əsaslı iqtisadi strukturun təkmilləşməsi və ölkə iqtisadiyyatının inkişafında insan kapitalından istifadənin səmərəliyinin artırılması, sosial siyasət strategiyası, səmərəli sosial müdafiə sisteminin qurulması, uşaq və qadın hüquqlarının qorunması, şəhid ailələrinə göstərilən qayğı, qaçqın və məcburi köçkünlər azad edilmiş ərazilərə qaytarılması məsələləri, gənclər siyasəti və idmanın inkişafı, ölkədə əhalinin sağlamlığı və səhiyyə sisteminin təkmilləşdirilməsi, əlillərin sosial müdafiəsinin təşkili təhlil edilmişdir.

**"Ölkədə əhalinin sağlamlığı və səhiyyə sisteminin təkmilləşdirilməsi"** adlanan II fəsilin I yarımfəslində dövlət səhiyyə sistemi, səhiyyə ocaqlarında yenidənqurma işləri, səhiyyə sistemində həyata keçirilən islahatlar nəticəsində vətəndaşlara tibbi sığorta müqavilələri, beynəlxalq praktikada sınaqdan keçmiş icbari tibbi sığorta sistemi təhlil olunmuşdur. Əhalinin qayğıya, köməyə daha çox ehtiyacı olan qrupları əlillər xüsusi olaraq təhlil obyektinə çevrilir, diqqət həmin kateqoriyada xüsusi məqamlara cəlb olunur, əsaslı ümumiləşdirmələr aparılır. Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin uğurlu siyasətinin həyata keçirilməsi, Birinci Vitse-Prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyəti burada geniş təhlil olunmuşdur.

Azərbaycan Prezidentinin bu istiqamətdə verdiyi tarixi qərarlar sayəsində ötən onilliklərdə ölkəmizdə səhiyyə sisteminin müasirləş-

dirilməsi sahəsində əsaslı nəticələr əldə edilmişdir. Mərkəzdə və əyalətlərdə mövcud olan səhiyyə ocaqlarında yenidənqurma işləri aparılmış, ölkənin bütün regionlarında diaqnostika mərkəzləri tikilib yüksək keyfiyyətli ən müasir avadanlıqlarla təchiz edilərək əhalinin istifadəsinə verilmişdir. Bu sahədə reallaşdırılan dövlət layihələri nəticəsində yüzlərlə peşəkar həkim, tibb bacısı yetişdirilmiş, bir vaxtlar mövcud olan həkim çatışmazlığı problemi aradan qaldırılmışdır. Səhiyyə sistemində həyata keçirilən islahatlar nəticəsində vətəndaşlara tibbi sığorta müqavilələri əsasında xidmət göstərən səhiyyə müəssisələri eyni zamanda vətəndaşların rəylərini nəzərə alan sığorta cəmiyyətləri kimi çıxış etməyə başlamışlar. Bu müəssisələrin fəaliyyəti səhiyyə bazarında rəqabət prinsipinin formalaşmasına imkan yaratmışdır.

II fəslin II yarımfəsli **"Qaçqın- məcburi köçkünlərin və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması"** adlanır. Bu yarımfəsildə prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlər sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn sərəncamları, qaçqın və məcburi köçkünlərin sosial rifah şəraiti, onların işlə təmin olunması, çadır şəhərciklərinin yerində daha müasir infrastruktura malik qəsəbələrin tikilib istifadəyə verilməsi ətraflı tədqiq olunur.

Yarımfəsildə Vətən müharibəsində canından keçən şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğının hər zaman aktual məsələlərdən olduğuna diqqət mərkəzinə gətirilərək, prezident İlham Əliyev və Birinci Vitse Prezident Mehriban Əliyevanın şəhid ailələrinin sosial problemlərinin həlli istiqamətində gördükləri işlər araşdırılır, ölkə prezidentin fərmanı ilə yaradılan "Yaşat" fondunun şəhid ailələrinin və müharibə əlillərinə dövlət dəstəyinin daha da artırılması istiqamətində həyata keçirdikləri sosial layihələrin əhəmiyyəti vurğulanır.

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunması istiqamətində, ölkənin inkişafında bu prosesin rasional idarə edilməsi, həmçinin bu əsasda yarana biləcək qeyri-qanuni miqrasiyanın qarşısının alınması istiqamətində aşağıdakı tədbirlər həyata keçirir:

- siyasi və iqtisadi sahədə olan prosesləri diqqətdə saxlayaraq, qaçqın və məcburi köçkünlər, həmçinin digər miqrantların problem-

lərinin həlli istiqamətində dövlətin rasional siyasətinin formalaşdırılması, bu sahədə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi;

- miqrasiya sahəsinin rasional tənzimlənməsinin yüksəldilməsi və s.

Yurdlarından didərgin düşmüş soydaşlarımızın öz torpaqlarına qayıtması üçün sürətli və geniş miqyaslı işlər həyata keçirilməkdədir. Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan, Şuşa və s. ərazilərdə kompleks infrastrukturların qurulması, vətəndaşların yaşayışı üçün bütün şəraitin yaradılması istiqamətində işlər böyük sürətlə həyata keçirilir. Kəndlər, qəsəbələr və şəhərlər yenidən inşa olunur və müasir standartara cavab verən infrastrukturlar qurulur. Plana uyğun olaraq mərhələ-mərhələ bütün şəhər və kəndlərin əhalisinin qayıdışı həyata keçiriləcəkdir.

Şəhid ailələrinə dövlət və cəmiyyət qayğısının təzahürləri kifayət qədər zəngindir, əhatəlidir.

Bunlardan bir qismini qeyd etsək, mənzərə tam şəkildə görünər.

- 2019-cu il yanvarın sonuna qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə isə minik avtomobilləri verilmişdir;

- 19 aprel 2018-ci il tarixli Prezident Fərmanına əsasən, ötən müddət ərzində hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmə həyata keçirilmişdir;

- Ölkəmizdə müharibə əlilləri və veteranları ilə yanaşı, şəhid ailələrinin də mənzillə təminatı həyata keçirilmişdir;

- Şəhid ailələrinin Prezidentin aylıq təqaüdü, yaxud müavinətlərlə təmin olunması diqqət mərkəzindədir;

- Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə və müharibə əlillərinin uşaqlarına da aylıq sosial müavinət verilir.

- Şəhid ailəsi və Milli Qəhrəman ailəsi üzvlərinə əmək pensiyası təyin olunarkən əlavə də hesablanır.

- Şəhid ailələrinin və müharibə əlillərinin övladları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

Qeyd etdiyimiz məqamlar, nəzərdə tutulan imtiyazlar və təminatlar göstərir ki, ölkəmizdə şəhid ailələri daim diqqət mərkəzindədir.

**"Gənclər siyasəti və təhsil sisteminin formalaşdırılması"** adlanan III yarımfəsildə gənc nəslin fəal vətəndaş kimi formalaşdırılması, ulu öndər Heydər Əliyevin müstəqillik şəraitində gənclərin roluna diqqəti, prezident İlham Əliyevin milli inkişaf strategiyasında gənclər siyasəti, respublika gənclərinin forumları, gənclərə münasibətdə dövlət siyasətinin əsas istiqamətləri, gənclərin müxtəlif təşkilatlarının davamlı fəaliyyəti, könüllülər hərakatına strateji baxış, təhsil sisteminin yeni iqtisadi modelinin həyata keçirilməsi, elm sahəsində ən mühüm fəaliyyət istiqamətləri araşdırılmışdır. Yarımfəsildə sağlam, savadlı və intellektual nəslin formalaşdırılması, yüksək peşəkarlığa malik gənc kadrların, güclü vətənpərvərliyə malik gənc nəslin yetişdirilməsi istiqamətində aparılan işlər və dövlət proqramları öz əksini tapmışdır. Azərbaycanın milli inkişaf sisteminin ən vacib struktur elementlərindən biri də gənclər və təhsil siyasətidir. Ümummilli lider Heydər Əliyevin bu sözləri ciddi proqramı xarakterinə malikdir: "Biz dövlətin və cəmiyyətin fəaliyyət idarə edilməsində gənc nəslin qüvvəsinə arxalacaq, onların imkanlarından maksimum istifadə edəcəyik".[27]

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclər siyasətini də bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən birinə çevirmişdir.

Bir xalqın, millətin yaşaması, inkişafı üçün ən əhəmiyyətli təməllərdən biri də ölkənin gəncləri, dövlətin gənclər siyasətidir. Gənclər dövlətin, cəmiyyətin dayağı, gələcəyidir. Gənclik eyni zamandan cəmiyyətin əsas hərəkətverici qüvvəsidir. Cəmiyyətdə sağlam və savadlı gənclərin yetişməsi gələcək nəslin sağlam olması deməkdir. Bir sözlə, gənclər dövlətin inkişafında önəmli rol sahibidir. Onu da qeyd edək ki, hazırda gənclik bütün dünyada tarixin heç bir dövründə olmadığı qədər böyük yerə və rola malikdir. Dünya əhalisi tərkibində gənc nəslin payı heç zaman indiki qədər geniş olmayıb. Belə ki, hazırda bütün dünyada gənclərin sayı 1,8

---

[27] Dövlət idarəçilik nəzəriyyəsi. Dərslik. /– Bakı: "Elm və təhsil", – 2010, s.27

milyarda çatır. Digər tərəfdən isə, gənclərin müasir bilik və bacarıqlara açıqlığı, yaradıcı təfəkkürü, sürətli dəyişikliklərə daha çevik uyğunlaşa bilmək qabiliyyəti, innovasiyalara bələdliyi, sahibkarlıq bacarıqları elmi-texnoloji inkişafda onların rolunu yüksəldir.

Ölkəmizdə gənclər siyasətinə, gəncliyin inkişafına çox diqqət yetirilir. Məhz bu səbəbdən Prezident İlham Əliyevin milli inkişaf strategiyasında gənclər siyasəti xüsusi yer tutur. Milli inkişaf strategiyası kontekstində cəmiyyətin sosial strukturunda gənc nəslin fəal vətəndaş kimi formalaşdırılması ciddi əhəmiyyət kəsb edir.

Dövlət tərəfindən aparılan uğurlu "Gənclər siyasəti"nin nəticəsi olaraq prezident İlham Əliyev tərəfindən 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı"ı təsdiq edildi. Proqram cəmiyyətin bütün sahələrində gənclərin inkişafına dövlət qayğısının artırılmasını, onların inkişafı üçün lazımi tədbirlərin görülməsini nəzərdə tuturdu. Dövlət qayğısının artırılmasına yönələn dövlət proqramları sonrakı illərdə də qəbul edilərək Azərbaycan gəncliyinə geniş imkanların yaradılmasını təmin etdi.

Dövlətin gənclər siyasəti gənclərin inkişafı üçün güclü stimul yaradır, onları təkcə bu günün yox, həm də gələcəyin problemləri barədə düşünməyə istiqamətləndirir. Bu siyasət gəncləri əhəmiyyətli dərəcədə fəallaşdırır, onların aktiv vətəndaş mövqeyinin formalaşmasına ciddi təsir göstərir.

Gənclər inkişaf etmiş insan kapitalına çevrilməsi üçün əsas istiqamətlərdən biri də onların yüksək keyfiyyətli təhsilə yiyələnmələridir. Öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının daha çox diqqət ayırdığı, böyük qayğı göstərdiyi sahələrdən biri də elm və təhsil olmuşdur. Təhsil sisteminin yeni iqtisadi modelinin həyata keçirilməsində aşağıdakı prinsiplərə əməl etmək vacibdir:

- dövlətin təhsil sahəsində idarəetməyə nəzarətinin gücləndirilməsi;
- ölkə daxilində yerli və regional amilləri nəzərə almaqla vahid təhsil siyasətinin həyata keçirilməsi, təhsilin normal inkişafı üçün maliyyə təminatının gücləndirilməsi;
- dövlətin təhsilə zamənətli təminat verməsi və böhran

dövründə zəmanətli dövlət təminatının saxlanılması;

- elm və təhsil obyektlərinə elmi və təsərrüfat azadlığının verilməsi;
- təhsil sahəsinə imtiyazların və vergi güzəştlərinin tətbiqi;
- qeyri-dövlət elm və təhsil müəssisələrinin inkişafına şəraitin yaradılması;
- özəl təhsil sahələri ilə yanaşı dövlət müəssisələrində də ödənişli təhsil xidmətinin inkişafı;
- dövlət hesabına təhsil alan tələbələrə verilən təqaüdlərin minimum əmək haqqı səviyyəsində ölçülməsini təşkil etmək.

Təhsilin inkişafını şətləndirən amillər təbii ki, müxtəlifdir. Belə ki, bunun üçün ilk öncə normati-hüquqi baza mükəmməl olmalıdır. Bu sahədə qəbul edilən qanunlar işlək və praktik olmalıdır və eyni zamanda müasir standartlara cavab verməlidir. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı qəbul edilən qanunlar məhz bu qəbildəndi və ildən ilə təhsil səviyyəsinin artması bu qanun və proqramların mükəmməl olmasından xəbər verir. 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" qanun dövlətin milli inkişaf siyasətində təhsilə verilən böyük önəmin bariz nümunələrindən biridir. Bundan başqa dövlət tərəfindən təhsilə ayrılan vəsaitin əvvəlki illərə nisbətən dəfələrlə artması, ail təhsil müəssisələrinin sayının 46-dan 51-ə qaldırılması, xaricdə təhsil proqramına dövlət tərəfindən böyük miqdarda vəsait qoyulması, dövlət hesabına təhsil layihəsinin yaradılması, geniş struktur və kadr islahatları bu sahədə gedən proqressiv inkişafdan xəbər verir. Ali təhsil ocaqlarında tədrisin keyfiyyətinin artırılması, boloniya sisteminin tətbiq edilməsi bu gün müsbət nəticələr verməkdədir. Bu dövrdə əsasən aşağıda qeyd etdiyimiz məsələlər ön plana çəkilir:

- təhsil sisteminin daha çox elmi tədqiqatlara üstünlük verən səmərəli olan yeni modellə əvəz olunması;
- kadrların ixtisas və peşə təhsilinin stimullaşdırılması;
- təhsil sistemində qeydi-dövlət sektorunun formalaşdırılması;
- təhsilin dövlət tərəfindən himayəsinin daha da gücləndirilməsi.

Təhsil sahəsində uğurlu islahatların həyata keçirilməsi ölkənin bütün regionlarında təhsilin keyfiyyətinin artmasına gətirib çıxarır ki,

bu da ildən ilə ali məktəblərə qəbul olan gənclərin sayına təsir edir. Bu artım Dövlət Statistika Komitəsinin dissertasiyada təqdim edilmiş göstəricilərdə də öz əksini tapmışdır. Müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir.

Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı üç məqsədə nail olunmalıdır:

- yaradıcı və innovativ cəmiyyət;
- vətəndaşların sağlam həyat tərzi.
- XXI əsrin tələblərinə uyğun təhsil[28].

II fəslin 4-cü yarımfəsli **"İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması"** adlanır. Bu yarımfəsildə insan kapitalı anlayışının təhlili, insan kapitalının inkişafının təmin edilməsi və müasir iqtisadi inkişaf dövründə rəqabət qabilliyətinin artırılması məsələləri geniş tədqiq edilmiş, bu sahədə dövlət tərəfindən həyata keçirilən islahatlar ardıcıllıqla təhlil olunur. Postmüharibə dövründə azad edilmiş ərazilərin bərpası və müasir tələblərə uyğun yenidən qurulmasında insan kapitalından istifadə edilməsi istiqamətləri araşdırılmışdır.

Sosial sahənin tənzimlənməsində və planlaşdırılmasında dövlətin hazırladığı və həyata keçirdiyi sosial layihələr və proqramlar, rifah səviyyəsinin yüksəldilməsi, əmək haqqının, təqaüdlərin, müavinətlərin və s. artırılmasında ölkə başçısının imzaladığı fərman və sərəncamlar nəzərdən keçirilir.

Dövlət büdcəsində sosial sahənin inkişafına ayrılan vəsaitlərin ildən-ilə artırılması barədə statistik göstəricilərə muraciət edilərək, sosial təminat sahəsindəki artım dinamikasına diqqət çəkilir.

Azərbaycan Respublikasında elm və təhsilə xərclənən sərmayə öz müsbət nəticələrini verməklə bərabər, perspektiv inkişaf üçün də böyük ümidlər yaradır. Bir neçə il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülümüş - "qara qızıl"ı insan kapitalına çevirək" tezisi bu günümüzdə artıq reallığa çevrilib. Təbii ki, insan kapitalının yaradılması istiqamətində atılan addımlar ölkənin iqtisadi potensialının güclənməsinə, qlobal

[28] Order of the President of the Republic of Azerbaijan on approval of "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" [Electronic resource]/ URL: https://president.az/en/articles/view/50474

rəqabət qabiliyyətinin artmasına da öz əhəmiyyətli təsirlərini göstərmişdir. Nəticə etibarilə ölkənin iqtisadi və siyasi qüdrəti artmış, xalqın rifah halı əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bu baxımdan hətta bazar iqtisadiyyatı şəraitində rəqabətin, təklif və sorğunun nisbətinin vəziyyətindən asılı olaraq insan kapitalının yüksələn xəttlə inkişafı təmin olunur. İstənilən ölkədə idarəçilik kadrlarının hazırlanması, siyasi elitanın formalaşması ümdə vəzifələrdən biridir. Burada təhsil və istehsalat yüksək səmərə verərək, insan kapitalının yetişdirilməsi üçün öz inkişaf xəttini müəyyən etməlidir.

Cəmiyyətdə iqtisadi inkişaf yüksək səviyyədə getməkdədir. Belə ki, həyat səviyyəsi yüksəlir, insan kapitalından daha geniş istifadə olunur. Bu baxımdan sosial müdafiə sistemi ildən-ilə genişlənərək əhalinin tərəqqisinə xidmət etməkdədir. İnsan kapitalı təhsil, tərbiyə, real həyati təcrübənin aşılanması yolu ilə formalaşdırılır. Real həyat qarşımıza suallar qoyur, onların cavablarını istəyir, eyni zamanda cavabları aydınlaşdırmaq üçün yol da göstərir: informasiyanı toplamaq, onu işləmək, nəticə çıxarmaq. Müasir informasiya məkanında, indiki informasiya-kommunikasiya texnologiyalarının yaratdığı şəraitdə vəziyyəti öyrənmək, nəticə çıxarmaq, lazımi iş görmək üçün əlimizdə hər bir vasitə var.

Azərbaycan "İnsan kapitalının inkişafı indeksinə" əsasən bu istiqamətin inkişaf göstəricilərinə görə ön sıralardadır. Prezident İlham Əliyev hər zaman ölkəmizin hazırkı iqtisadi və siyasi mənzərəsini şərh edərkən müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi ağır vəziyyəti diqqətə çatdırır, keçilən böyük inkişaf yolundan danışarkən aparılan işlərin, həyata keçirilən islahatların mərkəzində hər zaman Azərbaycan vətəndaşının, xalqın dayandığını qətiyyətlə qeyd edir.

III fəsil "**Milli inkişaf sisteminin formalaşdırılmasında prezident İlham Əliyev cənablarının müasir tipli islahatlar zəminində uzaqgörənliyi: qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi**" adlanır və 4 yarımfəsildən ibarətdir. Bu fəsildə informasiya cəmiyyətinə keçid, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, müasir tələblərə cavab verən informasiya sistemlərinin dövlət strukrurlarına tədbiqi məsə-

ləri, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunun siyasi aspektləri, milli-mədəni irsin qorunması, o cümlədən azad edilmiş ərazilərdə tarixi-mədəni abidələrin bərpa olunaraq istifadəyə verilməsi istiqamətində görülən tədbirlər, ətraf mühitin qorunması və ekologiya məsələləri ətraflı şəkildə araşdırılmışdır.

III fəslin I yarımfəsili **"Vətəndaş cəmiyyəti qadın və uşaq hüquqları"** adlanır. Bu yarımfəsildə vətəndaşların azadlığı, demokratik prinsiplərinin həyata keçirilməsi, gender bərabərliyinin qorunması, ölkə qanunvericiliyində cinsindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının, o cümlədən uşaqların təhsil, səhiyyə hüquqlarının təmin edilməsi, əmlak toxunulmazlığı, kimsəsiz uşaqların dövlət təminatı məsələləri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə həyata keçirilən uşaq evlərinin və sığınacaqların yenidən müasir səviyyədə qurulmasının gələcək nəslin formalaşmasına göstərdiyi müsbət təsirlər nəzərdən keçirilir. Vətəndaş cəmiyyətinin qurulmasında dövlətin müstəsna yeri və rolu olduğu diqqətə çəkilərək, vətəndaş cəmiyyətinin açıq, şəffaf, müstəqil, demokratik və müstəqil olması və bu sadalananların təmin edilməsi birbaşa dövlətin səlahiyyətləri çərçivəsində olması qeyd edilir. Müstəqillik bərpa edildikdən sonra ölkəmizdə də prezident İlham Əliyevin vətəndaş cəmiyyətinin qurulması istiqamətində aparılan işlər nəzərdən keçirilmişdir.

Yarımfəsildə geniş tədqiqat aparılaraq vətəndaş cəmiyyətinin qurulmasında demokratik prinsiplərə əməl edilməsi başlıca şərtlərdən olduğu vurğulanır. Vətəndaş cəmiyyətinin daxilində istiqamətlərın fərqləndiyi qeyd edilir:

1. Siyasi istiqamət vətəndaş cəmiyyətinin üzvlərin qarşılıqlı siyasi münasibətlərini özündə ehtiva edir. Bura siyasi partiyaların və təşkilatların bir-biri ilə, dövlətlə və.s qarşılıqlı siyasi münasibətləri daxildir.

2. İqtisadi-sosial istiqamət isə vətəndaş cəmiyyətini təşkil edən üzvlərin, qrupların, təşkilatların qarşılıqlı iqtisadi münasibətlərinin, onların təşəbbüsləri ilə qurulan qeyri-dövlət şirkətlərinin, kommersiya təşkilatlarının fəaliyyətinin həyata keçirildiyi istiqamətdir.

3. Vətəndaş cəmiyyətinin elmi-mədəni sahəsində isə vətəndaşların bu sahədə müstəqil fəaliyətinin həyata keçirilməsini təmin edir.

Bu fəslin **“Ətraf mühitin qorunması və ekologiya məsələləri”** adlanan 2-ci yarımfəslində təbiət və cəmiyyətin qarşılıqlı münasibətlərinin qarşılıqlı təsiri, ekoloji problemlərin insanların səhhətinə, iqtisadiyyata təsiri, ekologiyanın qorunması, şəraitində azad edilmiş regionların müharıbənin yaratdığı ekoloji fəsdların aradan qaldırılması, bu sahədə dövlət və ictimai təşkilatların apardığı işlər araşdırılır, IDEA İctimai Birliyinin sədri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr nəzərdən keçirilir.

Prezident İlham Əliyev sərəncamı ilə 2020-ci il 15 aprel tarixində “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər planı” çərçivəsində xüsusi komissiya yaradılmışdır ki, bu ölkə ərazisindəki su ehtiyatlarının qorunması sahəsində tədbirlərin səmərəliyinin artırılmasına yönəldilmişdir. Yarımfəsildə belə bir qənaətə gəlinir ki, Azərbaycanda ekoloji problemlərin həlli üzərində iş beynəlxalq qurumların tələbləri baxmından qənaətbəxşdir, ölkədə təbiətin qorunması və təbii sərvətlərin bərpası, ekoloji mədəniyyətin yüksəldilməsi, ekologiyanın müxtəlif sahələri üzrə ixtisaslı kadrların hazırlanması müasir tələblər səviyyəsində həyata keçirilir. Cənab Prezident İlham Əliyevin siyasi strategiyasında ekoloji siyasət əhəmiyyətli yerlərdən birini tutur. Belə ki, bu siyasət hər zaman dövlət siyasətinin əsas sahələrindən birini təşkil edir. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan “yaşıl” texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcəkdir[29].

**“İnformasiya cəmiyyətinə keçid: informasiya – kommunikasiya texnologiyalarının inkişafı” adlanan** III yarımfəslində İnformasiya cəmiyyəti anlayışı, insan fəaliyyətinin müxtəlif sahələrində informasiya texnologiyalarının tədbiqi, o cümlədən

[29] Order of the President of the Republic of Azerbaijan on approval of “Azerbaijan 2030: National Priorities for Socio-Economic Development” [Electronic resource]/ URL: https://president.az/en/articles/view/50474

“ASAN xidmət agentliyi və “DOST” xidməti kimi yüksək texnologiyaların tətbiq edildiyi sahələr araşdırılır, dünya informasiya məkanına inteqrasiyanın ölkənin inkişafına təsir meyilləri tədqiq edilir. Dövlət idarəçiliyində “elektron imza”, “asan imza” sertifikatların istifadəsi isə ölkədə elektron hökumət sisteminin tətbiqi sahəsinin genişləndirilməsində, elektron xidmətlərin əl çatanlığının təminində müstəsna rol oynayır. Rəqəmsal tranformasiyaya keçidin sürətləndirilməsi, süni intelekt üzrə strategiyanın işlənib hazırlanması, təhsil, distant təhsil məsələrinə yeni baxış və s. layihələrin həyata keçirilməsinin yeni perspektivlər açdığı vurğulanır.

Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması və qlobal informasiya məkanına inteqrasiyasını sürətləndirmək məqsədilə ölkədə ilk mobil rabitə xidmətləri göstərən Bakcell şirkəti fəaliyyətə başlamışdır. Azərbaycanın Transasiya-Avropa kabel magistralına qoşulması nəticəsində informasiya-kommunikasiya texnologiyalarının təkmilləşdirilərək daha müasir mərhələyə keçid imkanları meydana çıxmışdır. “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya”nın Prezident tərəfindən təsdiq olunması informasiya texnologiyaları sahəsində inkişafı daha da sürətləndirmişdir.

Ölkədə informasiya və komunikasiya sahəsində görülən işlərin düzgün təşkili məqsədilə Prezident İlham Əliyevin sərəncamı əsasında Rabitə Nazirliyi yenidən formalaşdırılaraq onun əsasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdır. Ölkədəki bütün ATS-lərin elektronlaşdırılması rabitə sisteminin daha dayanıqlı, keyfiyyətcə yüksək mərhələyə keçməsinə şərait yaratmışdır. 2013-cü ildə Azərbaycanın ilk kosmik rabitə peyki olan “Azerspace”-in orbitə çıxarılması Azərbaycanda rabitə sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması və beynəlxalq rabitə əlaqələrinin inkişafına, ölkənin iqtisadi maraqlarının genişlənməsinə şərait yaratmışdır.

Cənab İlham Əliyevin sərəncamı ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN xidmət) əhaliyə göstərilən xidmətlərin vahid pəncərə sistemindən idarə olunmasına şərait yaratmışdır. Dövlət və özəl sektorun idarə edilməsində müasir

texnologiyaların tətbiqi elekton hökumət portalından istifadəni, elektron imza, asan imza kimi sertifikatların tətbiqini günümüzün reallığına çevirmişdir.

AMEA nəzdində Yüksək Texnologiyalar Parkının yaradılması da Azərbaycanda elmi araşdırmaların innovativ istiqamətlərə yönəldilməsinə, müasir səviyyədə elmi-texniki təcrübələrin aparılmasına, yeni texnologiyaların tətbiqinə imkan yaratmışdır.

III fəslin 4-cü yarımfəsli **“Modern cəmiyyət, nailiyyətlər və problemlər”** adlanır. Bu yarımfəsildə prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti Azərbaycanın dünya ölkələri sistemində getdikcə genişlənən nüfuzu beynəlxalq təşkilatlarla əməkdaşlığı yeni səviyyəyə gətirməsi, bu əməkdaşlığın nəticəsi olaraq Azərbaycanda bir sıra beynəlxalq əhəmiyyətli forumlar, o cümlədən Avropa və müsəlman dünyası arasında əlaqələrin möhkəmlənməsinə xidmət edən tədbirlərin keçirilməsi, rabitə sisteminin təkmilləşdirmək məqsədi ilə “Azərspace-1”, “Azərspace-2”, “Azərsky” peyklərinin istifadəyə verilməsi, ölkə daxilində yeni, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və ölkənin inkişafının daha da modern səviyyəyə yüksəldilməsi məsələləri araşdırılmışdır.

Azərbaycan Respublikası bərpa etdiyi müstəqilliyi möhkəmləndirmək, öz dövlət quruluşunu daha da inkişaf etdirməklə dünya ölkələrı sırasında xüsusi yer tutur. Belə bir prioritetlə yanaşı, həm də iqtisadi inkişaf ön plana çəkilir. Əvvəlki tarixi-siyasi təcrübə, mövcud şəraitin real qiymətləndirilməsi daha müasir bir cəmiyyətin formalaşdırılması sahəsində müstəqil Azərbaycanın inkişaf yollarının əsas istiqamətlərini təyin etməyə imkan yaratmışdı. Məhz bu səbəbdən də beynəlxalq ekspertlər, analitiklər və nüfuzlu reytinq agentlikləri tərəfindən Azərbaycanın “dinamik inkişaf modeli” yekdilliklə “cəlbedici model” statusu qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin ev sahibliyi ilə “Bakı Prosesi”, Mədəniyyətlərarası Dialoq Forumu, Qlobal Bakı Forumu, Dünya Dini Liderlərinin zirvə toplantısı kimi tədbirlərin keçirilməsi Azərbaycanda mənəvi problemlərlə sıx bağlı olan dinlərarası dialoqla yanaşı, multikultural dəyərlərə yüksək dəyər verən, beynəlxalq aləmdə özünəməxsus yeri olan müasir cəmiyyətin olduğunu göstərir.

Bakı Olimpiya stadionu, Bakı Su idmanı Sarayı, Milli Gimnastika Arenası, Bakı Atçılıq Mərkəzi, Avropa Oyunları Parkı, Velopark, "Kristal Holl", Heydər Əliyev adına "İdman Konsert Kompleksı", "Formula-1" yarışlarının keçirilməsi kimi lahiyələr Azərbaycanı modern ölkə kimi dünyaya təqdim edir.

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial – iqtisadi inkişafı Dövlət Proqramının reallaşdırılması istiqamətində aparılan işlərin sürətləndirilməsi ölkədə turizm sektorunun inkişafına da öz töhfəsini verir. Qış turizminin, regionlara səyahətlərin, mədəni istirahətlərin təşkili kimi məsələlər ölkə iqtisadiyyatının mühüm hissəsini təşkil edir. Turizm sektorunda təqdim edilən Azərbaycan mətbəxi nümunələri, Şəki xan sarayı, İçərişəhər dövlət tarixi memarlıq qoruğu, Şirvanşahlar sarayı kompleksi və Qız Qalası da daxil olmaqla, Qobustan dövlət tarixi bədii qoruğu dünya mədəni irs siyahısına daxil edilmişdir.

Hazırda beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, paytaxt Bakının yol infrastrukturunun daha da müasirləşdirilməsi məsələsinə xüsusi diqqət yetirilir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən Bakının mövcud avtomobil yollarının əsaslı təmiri və ya yenidən qurulması, yeni yol qovşaqlarının yaradılması ümumilikdə ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verir.[30] Xüsusilə işğaldan yeni azad olunmuş rayonların müasir tələblərə uyğun səviyyədə bərpası Prezident İlham Əliyevin qarşıya qoyduğu vacib məsələlərdən biridir. Bu istiqamətdə işlər uğurla davam etdirilir. Kəndlər, rayonlar, şəhərlər bərpa edilir, geniş infrastruktur layihələri həyata keçirilir, yollar çəkilir, hava limanları tikilir. Bütün görülən işlərin, aparılan islahatların tək və yeganə məqsədi milli inkişaf strategiyası çərçivəsində ölkəmizdə bütün sahələrin inkişafına nail olmaqdır.

IV fəsil **"Milli inkişaf kontekstində İlham Əliyevin xarici siyasətinin prioritetləri"** adlanır. Bu fəsildə beynəlxalq və regional təhlükəsizlik siyasətində milli maraqların qorunması, bu istiqamətdə həyata keçirilən diplomatik fəaliyyət, beynəlxalq iqtisadi layihələrin

---

[30] Əliyev, İ. İnkişaf – məqsədimizdir. / İ.Əliyev. Yetmiş birinci kitab, oktyabr 2015 - dekabr 2015, –Bakı: Azərnəşr, -2018, -408 s.

həyata keçirilməsi, prezident İlham Əliyevin hərbi diplomatik strategiyasının araşdırılır. NATO, Avropa Birliyi, Qərbi Avropa İttifaqı və Avropa Şurası da daxil olmaqla Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya, Qarabağ münaqişəsi milli inkişaf sistemində birinci dərəcəli problem kimi diqqəti cəlb edilərək təhlil edilmişdir.

**“Beynəlxalq və regional təhlükəsizlik siyasətində diplomatiya anlayışı, milli maraqların qorunması”** adlanan bu fəslin 1-ci yarımfəslində beynəlxalq münasibətlər sistemində Cənubi Qafqazda, Azərbaycanın maraq dairələri müəyyənləşdirilməsi, dünyanın, regionun aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların ölkəmizə münasibətdə yeritdikləri siyasət hərtərəfli təhlil olunmuşdur. Həmçinin, beynəlxalq və regional təhlükəsizlik siyasətində diplomatiya anlayışının mahiyyəti açıqlanmış, prezident İlham Əliyevin diplomatik fəaliyyəti, milli maraqların qorunması, beynəlxalq təşkilatlar, beynəlxalq təhlükəsizlik sisteminin xüsusiyyətləri, xarici siyasət strategiyası, milli dövlət maraqları araşdırmışdır. Yarımfəsildə qeyd olunur ki, müstəqil Azərbaycanın geosiyasi vəziyyətinin təhlili, beynəlxalq vəziyyətin qiymətləndirilməsi üzərində qurulur. Dünya birliyinin iqtisadi və siyasi bölgüsü beynəlxalq mühitə və siyasi rejimlərin dəyişilməsinə təsir edir. Azərbaycan öz siyasi təsisatların inkişafına və təkamülünə geosiyasi durumu baxımından təsir edir. Bütün müasir və demokratik dövlətlərdə olduğu kimi Azərbaycan Respublikasında da xarici siyasət strategiyası müəyyən edilərkən dövlətin milli maraqları, tarixi və millətin etnik kimliyi əsas götürülür. Məhz prezident İlham Əliyevin də bu gün regional layihələrin ərsəyə gətirilməsində dövlət maraqlarından irəli gələn və öz intellektual təşəbbüsləri ilə oynadığı rol Cənubi Qafqaz bölgəsində həyata keçirilən həm siyasi, həm də iqtisadi proseslərin gedişatına dominant təsirini göstərməkdədir.

Bu səbəbdən, xüsusi qeyd olunmalıdır ki, prezident İlham Əliyevin liderlik keyfiyyətləri sayəsində müasir Azərbaycan beynəlxalq birlikdə etibarlı tərəfdaş nüfuzu qazanmış, ölkə Avropa ilə Asiyanı siyasi, iqtisadi və mədəni bağlarla birləşdirən regional güc mərkəzinə çevrilmişdir. Prezident İlham Əliyevin xarici siyasət prioritetlərində milli maraqların qorunması hər zaman ən ümdə

vəzifələrdən olmuşdur. İstər regional, istərsə də beynəlxalq siyasətdə aparılan bütün diplomatik fəaliyyətin əsasını Azərbaycan xalqının maraq və mənafeləri təşkil edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə suveren Azərbaycanın müstəqil siyasət yürütmək strategiyası ölkəmizin nüfuzunu qaldırmışdır. Bu gün Azərbaycanın xarici siyasət kursu xalqımızın milli maraqlarını ifadə edən daxili siyasətin davamı olaraq monolit siyasi mexanizm kimi həyata keçirilir. 2020-ci ildə Davos İqtisadi Forumunun "Strateji baxış:Avrasiya" mövzusunda panel iclasında iştirak edən Prezident İlham Əliyev ölkəmizin bir daha qonşu və beynəlxalq dövlətlərə hər zaman milli maraqları qorumaq şərtilə əməkdaşlığa hazır olduğunu bəyan etmişdir. BMT, Avropa Birliyi, ATƏT, Avropa Şurası, MDB, İKT, EKO, QDİƏT kimi beynəlxalq və regional təşkilatlarla hərtərəfli münasibətlərin qurulması ölkənin siyasi strategisının yürüdülməsinə daha geniş imkanlar yaradır.

**"Beynəlxalq iqtisadi layihələrin hazırlanması və həyata keçirilməsi"** adlanan 2-ci yarımfəsildə respublikamızın regional dövlətlərinin maraqlarını əks etdirən balanslaşdırılmış siyasi xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsi kimi məqamlar şərh edilmişdir. Həmçinin, bu yarımfəsildə Azərbaycanın yeni neft strategiyası, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yeni mütəqilliyini qazanmış Azərbaycanda iqtisadi layihələrin hazırlanması, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə xidmət edən və ölkənin iqtisadi inkişafını təmin edən yeni layihələrin həyata keçirilməsi, o cümlədən Azərbaycan dövlətinin və şirkətlərinin xarici ölkələrin iqtisadiyatına etdiyi yatırımlar və həyata keçirdiyi layihələr ətraflı araşdırılır.

Yarımfəsildə qeyd olunur ki, uğurla həyata keçirilən iqtisadi siyasət nəticəsində ölkədə formalaşan azad bazar iqtisadiyyatı xarici investorların diqqətini cəlb etməyə başladı və ölkəmizdə müxtəlif sahələrə böyük maliyyə yatırımları edildi. Bu yatırımların böyük əksəriyyəti qeyri-neft sektorunun və regionların iqtisadi inkişafının payına düşür. Ölkədə iqtisadi infrastrukturların qurulması və iqtisadiyyatın güclənməsi yerli şirkətlərin də inkişafına böyük dəstək oldu. Ölkənin ixrac potensialı da əhəmiyyətli dərəcədə yüksəldi. Eyni zamanda yerli şirkətlər beynəlxalq aləmdə təmsil olunmağa

başladı. Dünyada bazarında "Made in Azərbaycan" brendi özünə yer tutdu. Azərbaycanın sürətli iqtisadi inkişafı beynəlxalq nəşrlərdə və hesabatlarda öz əksini tapmağa başladı. Dünya maliyyə qurumları ilə də əməkdaşlıq yüksək səviyyədə inkişaf etdirilməyə başlandı. Məhz uğurlu islahatların nəticəsi olaraq Asiya İnkişaf Bankı artıq 20 ildən çoxdur ki, müxtəlif layihələrdə ölkəmizlə qarşılıqlı əməkdaşlıq nümayiş etdirərək ayrı-ayrı sahələrin inkişafına dəstək göstərir. Azərbaycanı daha inkişaf etmiş ölkəyə çevrilməsində, beynəlxaq əlaqələrin və beynəlxalq təhlükəsizlik kimi məsələlərin həyata keçirilməsində neft strategiyası mühüm əhəmiyyət kəsb edir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə milli inkişafı şərtləndirən beynəlxalq iqtisadi layihələrin hazırlanması və həyata keçirilməsi ilə bağlı Azərbaycan bir neçə istiqamətdə fəal iş apararaq ölkə üçün taleyüklü müqavilələrin bağlanmasına nail olmuşdur.

Prezident İlham Əliyevin siyasi strategiyası, diplomatiyası nəticəsində Türkiyə ilə 2012-ci ildə İstanbulda Transanadolu qaz kəməri (TANAP) layihəsinin həyata keçirilməsi barədə əldə olunan razılıq Azərbaycan qazının dünya bazarına çıxarılmasına, Böyük İpək Yolunun bərpası nəticəsində Azərbaycanın təkcə tranzit ölkə deyil, həm də ixracatçı ölkəyə çevrilməsinə şərait yaratmışdır.[31]

Azərbaycan Nabukko layihəsi vasitəsilə təbii qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana və İtaliyaya, digər Aİ ölkələrinə nəql etmək və yeni qonşuluq proqramı çərçivəsində Avropa Birliyi ilə sıx əməkdaşlıq imkanlarını nəzərdən keçirir.

Xarici siyasət və beynəlxalq iqtisadi əməkdaşlıq layihələrindən başqa, Prezident İlham Əliyev daxili iqtisadiyyatın gücləndirilməsi, istehsal və ixrac potensialnın artırılması məqsədilə ölkəyə investisiya cəlbinə xüsusi önəm verir.

"Əsrin müqaviləsi" kimi mühüm lahiyələr, Avropa-Asiya nəqliyyat dəhlizinin inkişafı, "İpək Yolu" nəqliyyat sisteminin dünya standartlarına uyğun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi, "Star" zavodunun açılışı, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Cənub qaz dəhlizi"nin reallaşdırılması, "Şahdəniz"

---

[31] İlham Əliyev Qarsda Trans-Anadolu qaz boru kəmərinin təməlinin qoyulması münasibətilə təntənəli mərasimdə iştirak edib[Elektron resurs]/ URL:https://president.az/az/articles/view/14566

nəhəng qaz yatağının istismara başlanması, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi, "Şahdəniz-2" yatağından əldə etdilən gəlirlər ölkədə daxili və beynəlxalq əhəmiyyətli lahiyələrin həyata keçirilməsinə şərait yaradır. Maliyyə imkanlarının genişlənməsi Ələt Beynəlxalq Dəniz Limanını, magistral yolları genişləndirməyə və müasirləşdirməyə, Xəzər dəniz gəmiçiliyini, hava limanlarını müasirləşdirməyə, Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini reallaşdırmağa stimul yaratmışdır.

IV fəslin 3-cü yarımfəsli **"Ali Baş Komandan kimi Prezident İlham Əliyevin hərbi diplomatik triumfu: qələbəyə aparan strategiya"** adlanır**.** Bu yarımfəsildə Azərbaycanın digər ölkələrə hərbi sahədə olan əməkdaşlığı təhlil edilir. Ali Baş Komandan, prezident İlham Əliyevin hərbi-siyasi sahədə həyata keçirdiyi tədbirlər geniş araşdırılır, hərbi uğurlarının nəticəsi olaraq beynəlxaq münasibətlərdə, xarici diplomatiya sahəsində Azərbaycan artıq qalib dövlət qismində çıxış edərək üstünlüyə malik olması, Azərbaycanın tarixi qələbəsinin ölkənin inkişafı üçün yeni perspektivlərin yaratdığı vurğulanır. Prezident İlham Əliyevin diplomatik sahadə ardıcıl fəaliyyəti Ermənistan rəhbərliyini postmüharibə dövrünün reallıqlarını qəbul etməyə, 10 noyabr 2020-ci ildə bağlanmış üçtərəfli bəyanatının şərtlərinə əməl etməyə məcbur edir. Məhz Azərbaycan həyata keçirdiyi "Qisas" antiterror əməliyyatı nəticəsində Ermənistan Respublikasının Kəlbəcər və Laçın rayonları ətrafında qeyri –qanuni nəzarətdə saxladıqları strateji yüksəklikləri ələ keçirmiş, yalnız siyası deyil, həm də hərbi sahədə üstünlüyə malik olduğunu bir daha nümayiş etdirmişdir. 2023-cü il üçün Azərbaycanın tarixi şəhəri olan Şuşa türk dünyasının mədəniyyət paytaxtı elan edildi. Qarabağ bölgəsində və Şərqi Zəngəzur ərazisində həyata keçirilən "ağıllı kənd" və "ağıllı şəhər" layihələri işğaldan azad olunmuş ərazilərin müasir tələblərə uyğun şəkildə yenidən qurulması baxımından mühüm hadisədir. Dünya standartlarına cavab verən Füzuli aeroportunun istifadəyə verilməsi, Laçında, Zəngilanda təməlləri atılan və inşası həyata keçirilən müasir aeroportların tikintisi, Qarabağın yeni dövrünün başlanmasını, Prezident İlham Əliyevın milli inkişaf strategiyasını ən yüksək səviyyədə dünyaya nümayiş etdirir.

Dissertasiyanın **Nəticə** hissəsində göstərilir ki, prezident İlham Əliyevin prezidentliyi dövründə milli inkişaf sisteminin qurulması və inkişafı üçün həyata keçirilən bütün tədbirlər, aparılan bütün islahatlar bu günkü Azərbaycanın ümumi mənzərəsinin əsasını təşkil edir. Xüsusilə iqtisadi sahədə aparılan islahatlar, neft və qeyri-neft sahəsinin inkişafı, istehsal sənayesinin yaradılması, ixrac potensialının artırılması, beynlxalq layihələr Azərbaycanın güclü və dayanıqlı inkişafını şərtləndirən əsas amillərdən biridir.

Prezident İlham Əliyevin siyasi strategiyasını istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar.

1. İctimai-siyasi istiqamət
2. Sosial-iqtisadi istiqamət
3. Elmi-mədəni istiqamət

Təbii ki bu istiqamətlərin hər biri də ayrı-ayrı fəaliyyət sahələrinə bölünür. İctimai-siyasi istiqamətdə aparılan işlər çox sahəli və genişdir. Bura daxili və xarici siyasət, diplomatiya, ordu quruculuğu, vətəndaş cəmiyyətinin qurulması, qeyri-hökumət sektorunun inkişaf etdirilməsi və s. daxildir.

Dissertasiya mövzusunun tədqiq edilməsi zamanı, bütövlükdə prezident İlham Əliyev strategiyasının müxtəlif istiqamətlərini və bu istiqamətlərin xarakterik cəhətlərini və s. nəzərdən keçirdik. Ümumiyyətlə, səmərəli milli inkişaf strategiyası tədbirlərinin həyata keçirilməsi, cəmiyyətin sosial həyatının inkişafı, rifah halının yüksəldilməsi ölkənin iqtisadi gücünün artırılmasını zəruri edir. Cəmiyyət üzvlərinin fərqli sosial maraqları və şəxsi tələbatları, yaşayış səviyyəsi, və s. bu kimi amillər sosial-siyasi faəliyyətin təkmilləşdirilməsi istiqamətində əsas xətt hesab edilir. Buna görə də qeyd olunan sahədə beynəlxalq təcrübənin istər nəzəri, istərsə də praktik baxımdan öyrənilməsi zəruri tələbatı ortaya qoyur. Beləliklə, ölkəmizdə daim dəyişən və inkişaf edən sosial-siyasi vəziyyəti, onu formalaşdıran amilləri və onun atributiv xüsusiyyətlərini aşağıdakı kimi ifadə edə bilərik:

- Dövlətin və dövlət siyasətini həyata keçirilməsinin lokomotivi kimi İlham Əliyevin siyasi strategiyasının cəmiyyət və vətəndaşlar qarşısındakı məsuliyyəti;

- ölkədə dinindən, irqindən, sosial mənsubiyyətindən və s. asılı olmayaraq hər kəsin qanun qarşısında eyni dərəcədə məsuliyyət daşıması və bərabərliyi;

- cəmiyyət üzvlərinin fəallığının və təşəbbüskarlığının dövlət tərəfindən dəstəklənməsi, onlara fəaliyyətlərində müəyyən dəstəyin verilməsi, vətəndaşların özünü ifadə və özünü təsdiqinə şərait yaradılması prezident İlham Əliyevin siyasi strategiyasında prioritet istiqamət olması;

- vətəndaşların bütün hüquq və azadlıqlarının dövlət tərəfindən təmin edilməsi və onların bu hüquqlarının müdafiəsi demokratik dövlət modelinin formalaşmasında xüsusi amil kimi dəyərləndirilməsi;

- cəmiyyətdə tolerant və demokratik qaydaların möhkəmləndirilməsi;

- Prezident İlham Əliyevin siyasi strategiyasında cəmiyyətin sosial idarəedilməsində üfüqi və koordinasiyalı münasibətlərin inkişafı və bu münasibətlərin dövlətin inkişafında rolunun artırılması;

- Prezident İlham Əliyevin siyasi strategiyasının ana xətti olaraq insanların öz vətəndaşlıq və şəxsi ləyaqət hissinin yüksək tutması və onları sivil üsullarla müdafiə etmək bacarıq və imkanlarının mövcudluğunun inkişaf etdirilməsi;

- demokratik dövlətin formalaşmasında vətəndaşlar arasında bərabər hüquqluluğun inkişaf etdirilməsi və onların cəmiyyətin idarəolunmasında iştirakının təmin edilməsi.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin siyasi kursunda qorunub saxlanılan və davam etdirilən milli dövlətçilik ənənləri dövlətin ümumi inkişaf xəttində əsas həlledici amildir. Əsas diqqət yetirilməli məqam ondan ibarətdir ki, müasir dünyada, inkişafın dinamikasının dayanmadan sürətləndiyi bir mühitdə dövlətçilik ənənələrini qorumaqla bu inkişafla ayaqlaşmaq xüsusi siyasi qətiyyət, güclü diplomatiya və tarixinə, xalqına və millətinə bağlılıq tələb edir. Bütün bunlarla yanaşı milli təlükəsizliyin təmin edilməsi məsələsi də peşəkar idarəçilikdən xəbər verir. Milli inkişaf siyasətinin həyata keçirilməsində Prezident İlham Əliyevin siyasi strategiyası başlıca inkşaf xəttini təşkil edir. Prezident İlham Əliyevin siyasi strategiyasının təhlil edilməsi üçün həyata keçirilən bütün fəaliyyətin

kompleks şəkildə öyrənilməsi lazımdır. İlk öncə cənab İlham Əliyevin siyasi strategiyasının mahiyyətinə və xarakterinə, daha sonra isə hərəkət və fəaliyyət istiqamətlərinə nəzər salmaq lazımdır. Prezident İlham Əliyevin siyasi strategiyasının qayəsi Ulu Öndərin müəyyən etdiyi inkişaf prinsiplərinə əsaslanır. Bu prinsiplərin əsasında millətə və dövlətə sadiqlik, vətənə şərəfli xidmət durur. Azərbaycançılıq ideyalarının, milli maraqların və mənafelərin üzərində qurulan bu siyasi strategiya nəticəsində nail olunan iqtisadi və siyasi inkişaf dünyada inkişafın Azərbaycan modelinin formalaşması ilə nəticələnmişdir.

Milli inkişaf sisteminin formalaşması, vətəndaşların sosial və iqtisadi probemlərinin həll edilməsi, mədəni və siyasi nailiyyətləri yalnız cəmiyyətin bütün sahələrində sabitliyə nail olmaqla əldə etmək mümkündür. Bu gün məhz prezident İlham Əliyev qeyd edilən bütün sahələrdə əvəzsiz addımlar ataraq milli inkişaf sisteminin formalaşmasında müstəsna rol oynamışdır.

Dissertasiyanın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:

1. Azərbaycan Respublikasında sosial inkişafın təkmilləşdirilməsi istiqamətində həyata keçirilən sosial siyasət// Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu. Elmi Əsərlər, Beynəlxalq elmi-nəzəri jurnal, №1(30).2018, s.197-204

2. Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi problemi// Bakı Dövlət Universiteti: 1997 “Tarix və onun Problemləri”(nəzəri,elmi, Metodik jurnal) Bakı. 2018. 1997-086. №4 s.185-189

3. İnformasiya cəmiyyəti konsepsiyası və informasiya kommunikasiya texnologiyalarının qarşılıqlı münasibətləri: prioritetlər və perspektivlər// Bakı Dövlət Universiteti: 1997 “Tarix və onun Problemləri”(nəzəri,elmi,Metodik jurnal). 3 Adiloğlu, 1997-085 Bakı 2018. №3 s.160-166

4. Политические основания современной образовательной модели Азербайджана// Мнстерство Освіти І Науки Украіни Пвденноукранський національний педагогчний унверситет мен К.Д. Ушинського «Політикус» Науковий журнал, ISSN 2414-9616 Одеса, 2018, Выпуск 3 s.39-43.

5. Uşaqlara qayğı və qadın hüquqları Azərbaycan dövlət siyasətinin prioritet istiqamətlərindəndir//Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu. Dirçəliş XXI əsr. 2018\186, s.54-66.

6. Национальная Государственность в Азербайджане как основа народной власти // Мнстерство Освıты I Науки Украіни Государственный ВУЗ «Ужгородский Нацıональний Унверситет» Регıональнı Студıі Научный журнал »Ужгород, 2018, №12, с.109-113.

7. Political aspects of the civil society and rule of law formation in contemporary Azerbaijan// Comporative Politics Russia. 2019. vol. №.1 s.157-164

8. Azərbaycanın sosial siyasətində səhiyyə sistemi// Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Bakı Dövlət Universiteti Sosial Elmlər və Psixologiya Fakültəsi:Təhsil:Klassik və müasir yanaşmalar. Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları, 19 aprel 2019, s.349-353.

9. Hərbi sahə dövlət siyasətimizin çox mühüm sahəsidir// Heydər Əliyev adına Ali Hərbi məktəbi. Elmi əsərlər məcmuəsi. 2019, №2 (33) s.29-33

10. Sərhəd təhlükəsizliyinin təmin edilməsi məsələləri//Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Hərbi bilik hərbi elmi-nəzəri, publisistik jurnal.2019, №3 may-iyun s.59-63.

11. Azərbaycan Respublikasının milli inkişaf sistemində gənc nəslin rolu// Gənc tədqiqatçı. Elmi-praktiki jurnal, ISSN 2409-4838. 2019, V cild, №1, s.190-196.

12. Nəqliyyat infrastrukturu mürəkkəb sistem kimi// Geostrategiya, Kaspi araşdırmalar mərkəzi, ictimai-siyasi, elmi-populyar jurnal. 2019 mart-aprel, №2 (50), s.21-24.

13. Azərbaycanın beynəlxalq aləmdə tanınması və beynəlxalq strukturlara inteqrasiyası// Geostrategiya,Kaspi araşdırmalar mərkəzi, beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, sentyabr-oktyabr 2019, N.5 (53), s.51-60.

14. Sosial-iqtisadi və siyasi sahədə Azərbaycanın beynəlxalq əlaqələri// Azərbaycan Dillər Universiteti "Beynəlxalq münasibət-

lərin aktual problemləri” adlı Respublika elmi konfransı. Məruzlərin tezilәri. Bakı, 25 oktyabr 2019, s.216-219.

15. Развитие человеческого капитала как важное условие политического развития страны// ГİЛЕЯ Науковий весник Випуск Киів, 2019, 142(3), s.63-65.

16. Milli inkişaf sistemində Azərbaycan elmi// Azərbaycan Respublikası Təhsil Nazirliyi. Cəmiyyətin informasiyalaşmasının dövlətin daxili və xarici siyasətinə təsirinin iqtisadi, siyasi və sosial aspektləri elmi praktiki konfrans, 25-25 noyabr 2018, s.712-716.

17. Beynəlxalq təhlükəsizlik problemi// Bakı Dövlət Universiteti: 1997-088 “Tarix və onun Problemləri”(nəzəri,elmi, Metodik jurnal). Adiloğlu, Bakı. 2019, №2, S.180-183.

18. Национальная Стратегия Развития Азербайджанской Республики В Первой Четверти XXI Столетия// Актуальнı Питання Суспiльних Наук: Науковı ДискусıÌ:Мıжнародна Науково-Практична Конференıя. Киiвська наукова суспiльно-знавча органiзацiя, 17-18 серпня 2018, s.89-92.

19. Azərbaycan Respublikasının milli inkişafında beynəlxalq iqtisadi layihələrin rolu// Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət idarəçiliyi-nəzəri təcrübə, 2019, №2(66), s.217-224.

20. Azərbaycan milli inkişaf sistemində konstitusiya// Azərbaycan Milli Elmlər Akademiyasi Fəlsəfə İnstitutu. Elmi Əsərlər Beynəlxalq elmi-nəzəri jurnal, 2019, № 1 (32), s.143-148.

21. İqtisadi və sosial siyasətin qarşlıqlı əlaqəsinin güclənməsi nailiyyətlərimizi şərtləndirən mühüm amildir// Azərbaycan Universiteti, Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri” Respublika konfransı, 24 oktyabr 2019-cu il, s.86-88.

22. Azərbaycan Respublikasının milli inkişafinda gender demokratiyası// Azerbaijan University. Proceedings. "Gender problem and modern Azerbaijan" International conference, November 27, 2019, pp. 77-79.

23. Azərbaycan Respublikasının təhlükəsizlik strategiyası// Geostrategiya, 2020, №1 (55), s.53-58.

24. Национальная безапасность как гарантия внутренной стабильности и социальной защищенности общества// LVIII

Міжнародна конференция «Розвиток науки в XXI столітті», 14.03.2020, с. 50-55.

25. Сущность и историческое развитие государственности // «Вопросы истории» ежемесячный журнал, Москва: 2020, №5, с.110-118.

26. Qaçqın, məcburi köçkünlər və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin ən mühüm məqsədidir// Azərbaycan Milli Elmlər Akademiyası. Sosial Elmlər. "Elm" Bakı, 2020, №1, s.112-121.

27. Развитие информационного общества// Исследования и инновации: Сборник научных статей. - Юнона Паблишинг, Нью-Йорк, США. 2020, с.211-214.

28. Ərzaq təhlükəsizliyi və dövlət siyasəti// Fəlsəfə və Sosiologiya İnstitutu elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal, 2020, №1/34 s.113-118.

29. Проблемы изучения политологии в вузах //Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Elm Fondunun maliyyə dəstəyi ilə AMEA-nın 75 illiyinə həsr olunmuş Gənc Alim və Mütəxəssislər Şurasının (GAMŞ) təşkilatçılığı ilə "Fundamental və tətbiqi elmlərin müasir problemlərinin həllində multidissiplinar yanaşmalar" mövzusunda II beynəlxalq elmi konfransı, 3 mart 2020, s.489-492.

30. Milli təhlükəsizliyin qorunması dövlət siyasətində zəruri amil kimi// Azərbaycan Həmkarlar Ittifaqları Konfederasiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası. Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş Milli təhlükəsizliyin iqtisadi və sosial-mədəni aspektləri. Beynəlxalq elmi-praktik konfransın Materialları, 5 may 2020, s.238-241.

31. Azərbaycanda dövlətçilik ənənələrinin formalaşması və təkamülü//Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu. Elmi əsərlər, 2020, cild 81, s.3-12.

32. Dövlət quruculuğunun əsas mərhələləri və ictimai-siyasi münasibətlərin formalaşmasında rolu// AMEA Tarix muzeyi, Bakı: "AsPoliqraf", 2020, s. 461-470.

33. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin siyasi aspektləri// Azərbaycan Respublikası

Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. Dövlət idarəçiliyi-nəzəri təcrübə, 2020, №1(69), s.259-270.
34. Azərbaycan Respublikasının milli inkişaf sistemində hərbi və sərhəd təhlükəsizliyi problemi//Azərbaycan Respublikası Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası, №6 (107), Naxçıvan, 2020, s.50-54.
35. Azərbaycanın gələcəyini formalaşdıran siyasi strategiya: İlham Əliyev siyasəti/Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu. Elmi Əsərlər, Beynəlxalq elmi-nəzəri jurnal, 2021, №1(36) s.100-103.
36. Azərbaycanda XX-XXI əsrlərdə milli mədəniyyətin formalaşmasında siyasi münasibətlərin rolu //Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq Araşdırmaları elmi-nəzəri jurnal, №3, Bakı-2021, s.163-169.
37. Azərbaycan Respublikası milli inkişaf siyasətində davamlı inkişaf: ASAN xidmət və DOST mərkəzi// Azərbaycan Milli Elmlər Akademiyası. Sosial Elmlər. “Elm” Bakı, 2021, №1, s.231-236.
38. Siyasətin formalaşması və tarixi inkişafı// Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu. Azərbaycan tarixşünaslığı (Elmi əsərlər), №1/82, 2021, cild 81, s. 198-208.
39. Milli inkişafa doğru aparan yol:Heydər Əliyev Fenomeni// Azərbaycan Milli Elmlər Akademiyası. Sosial Elmlər. “Elm” Bakı, 2022, №1, s.186-193.
40. Защита национальной безопасности в Азербайджане как необходимый фактор общественной политики// «Вопросы истории» ежемесячный журнал, Москва: 2022, №6(1), с.237-247.

Dissertasiyanın müdafiəsi **04 noyabr 2022-ci il** tarixində saat **$14^{00}$**-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən BED 2.30 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, Az-1001, Lermontov küç, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **28 sentyabr 2022-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.09.2022
Kağızın formatı: A5
Həcm: 76927
Tiraj: 100